**Azərbaycan ilə İsveçrə arasında ikitərəfli əlaqələr yüksələn xətlə inkişaf edir**



Bax 2

**Nazirlər Kabinetində Baş Nazirin sədrliyi ilə müşavirə keçirilib**



Bax 4

**Yuli Qusman: "Azərbaycanın demokratik inkişafı parlament seçkilərindən sonra da davam edəcək"**



Bax 5



**"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir**


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 013 (5978) 25 yanvar 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# DAVOS FORUMU: Azərbaycan uğurlarını dünyaya tanıtdıran nüfuzlu məkan

*Prezident İlham Əliyev: "Davos Forumu dünyanın siyasi və iqtisadi elitasının ölkəmizə olan marağını ortaya qoyur"*





Bax 3

## Azərbaycanda koronavirusa yoluxma riski varmı?



Bax 7

"Çindən Azərbaycana gələnlər mütləq hava limanında koronavirusla bağlı yoxlamadan keçirilməlidirlər". Bunu "Report"a açıqlamasında Azərbaycanın baş infeksionisti Cəlal İsayev deyib. Onun sözlərinə görə, Çinə gedən Azərbaycan vətəndaşları da ehtiyatlı olmalı, özlərini qorumalıdırlar: "Azərbaycanda koronavirusa yoluxma riski var. Çünki Azərbaycanla Çin arasında sıx gediş-gəliş mövcuddur.

## Əli Kərimlinin "döyülən" - "söyülən" cinayətkarları, yoxsa..?



Sirr deyil ki, "quyruğu qapı arasında" qalan kimi, AXCP sədri Əli Kərimlinin ilk işi özünün və yan-yörəsinin ətrafında süni səs-küy yaratmaq cəhdləri olur ki, bu cəhdlərin də arxasında, əlbəttə ki, onun öz şəxsi "maraqları" dayanır.

Bax 15

## Naomi Osaka 15 yaşlı Kori Qauffa uduzub



*Tennis üzrə Avstraliya Açıq Çempionatının ("Australian Open") hazırkı qalibi, yaponiyalı Naomi Osaka "Böyük dəbilqə" seriyasının mövsümdə ilk turnirinin üçüncü dövrəsində amerikalı Kori Qauffa məğlub olub. Turnirin ümumi mükafat fondu 49,1 milyon dollar təşkil edir.*

Bax 16

## Corc Dik: "İsrail Azərbaycanın ərazi bütövlüyünü tam dəstəkləyir"



"Azərbaycandan olan nümayəndə heyəti gələn həftə İsraildə kibertexnologiyalar mövzusunda keçiriləcək tədbirə də qatılacaq. Azərbaycanda kənd təsərrüfatı sahəsində İsrailin yeni texnologiyaları tətbiq olunur. Ölkələrimiz arasında münasibətlərin daha da gücləndirilməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm".

Bax 5

## Məhkəməsinin sədri siyasi təqiblərə məruz qalır



Ermənistanın Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyanın evində axtarışın aparılması ilə bağlı verilən məhkəmə qərarı ölkədə, ictimai-siyasi rəydə və s. cinahlarda kəskin hiddət doğurub. Belə ki, bu cür qərarın verilməsinin özü heç bir məntiqə sığmır və siyasi təqib kimi qiymətləndirilir.

Bax 15

**"Azərbaycan dördüncü sənaye inqilabına ən yaxşı hazır olan ölkələrdən biridir"**



Bax 7

**İcbari sığorta və cərimə tətbiqinin vəziyyəti**



Bax 7

**Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığı davamlıdır**



Bax 6

# Azərbaycan ilə İsveçrə arasında ikitərəfli əlaqələr yüksələn xətlə inkişaf edir

*Prezident İlham Əliyevin Davosda İsveçrənin Montrö şəhərinin meri ilə görüşü olub*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda İsveçrənin Montrö şəhərinin meri, Azərbaycan-İsveçrə Dostluq Qrupunun həmsədri Loran Verli ilə görüşü olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Azərbaycan ilə İsveçrə arasında ikitərəfli əlaqələrin yüksələn xətlə inkişaf etdiyi bildirildi. İki ay əvvəl İsveçrə parlamentində Azərbaycan ilə dostluq qrupunun həmsədri təyin olunduğunu deyən Loran Verli bu qrupa rəhbərlik etməkdən məmnunluğunu bildirdi. O, fəaliyyəti dövründə Azərbaycan ilə İsveçrə, o cümlədən iki ölkənin qanunverici orqanları arasında əlaqələrin daha da sürətlə inkişaf etməsi üçün səylərini əsirgəməyəcəyini diqqətə çatdırdı.

Söhbət zamanı Azərbaycan ilə İsveçrənin şəhərləri arasında əməkdaşlıq münasibətlərinin qurulması ilə bağlı fikir mübadiləsi aparıldı, bir müddət əvvəl Montrö şəhəri ilə Bakının Səbail rayonunun qardaşlaşdığı bildirildi.

Görüşdə Azərbaycan şirkətlərinin İsveçrədə aktiv fəaliyyəti qeyd edildi və iki ölkənin şirkətləri arasında münasibətlərin daha da genişləndirilməsinin əhəmiyyəti vurğulandı.

# Prezident İlham Əliyev Davosda "Equinor" şirkətinin baş icraçı direktoru ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda "Equinor" şirkətinin baş icraçı direktoru Eldar Saetre ilə görüşüb.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə "Qarabağ" yatağı layihəsi müzakirə olundu. "Equinor" şirkətinin 1994-cü ildən Azərbaycanda olduğunu deyən dövlətimizin başçısı ölkəmizdə onun fəaliyyətinə çox böyük əhəmiyyət verildiyini qeyd etdi. Söhbət zamanı alternativ enerji mənbələri üzrə layihələr barədə də fikir mübadiləsi aparıldı.

# Heydər Əliyev Fondunun təşkilatçılığı ilə UNESKO-da Azərbaycan xalçalarının sərgisi açılacaq



***Yanvarın 29-da Parisdə UNESKO-nun baş qərargahında "Yeni kəşflər: Azərbaycan xalçaçılığında yeni motivlər" adlı sərgi açılacaq. AZƏRTAC xəbər verir ki, sərgi Heydər Əliyev Fondu, Azərbaycan Respublikasının Fransadakı Səfirliyi və UNESKO-dakı daimi nümayəndəliyinin təşkilatçılığı ilə reallaşacaq.***

Xatırladaq ki, bu sərgi ilk dəfə 2019-cu ildə Fransanın Kann şəhərində Azərbaycan mədəniyyəti günləri çərçivəsində təqdim olunub. Azərbaycan xalçaçılığında yeni "Şəki xalçaları" qrupunun yaradılması məqsədi daşıyan layihə çərçivəsində xalçaçı-rəssam, Xalq rəssamı Eldar Mikayılzadənin eskizləri əsasında iki il ərzində müxtəlif xalçalar toxunub. Həmin xalçalarda Şəki Xan Sarayı və Şəkixanovlar evinin ornamentlərindən, Şəkiyə aid motivlərdən istifadə edilib. Sərgi UNESKO-nun baş qərargahında fevralın 4-dək nümayiş olunacaq.

# DAVOS FORUMU: Azərbaycan uğurlarını dünyaya tanıtdıran nüfuzlu məkan

## *Prezident İlham Əliyev: "Davos Forumu dünyanın siyasi və iqtisadi elitasının ölkəmizə olan marağını ortaya qoyur"*



***Məlum olduğu kimi, yanvarın 21-dən 24-nə kimi İsveçrənin Davos şəhərində "Birgə və davamlı dünyanın maraqlı tərəfləri" mövzusunda keçirilən 50-ci Dünya İqtisadi Forumunda 117 ölkədən 2 mindən çox siyasətçi, akademik, iş adamı və qeyri-hökumət təşkilatlarının nümayəndələri qatılıb. Qeyd edək ki, 14-cü dəfə Davosda keçirilən forumda iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev bu il də dünyanın siyasi və iqtisadi elitalarının ən tanınmış nümayəndələri ilə görüşlər keçirib, Forum çərçivəsində "Strateji baxış: Avrasiya" mövzusunda keçirilən panel iclasında iştirak edib.***



2020-ci il yanvarın 21-də işə başlayan forumda da dünya üçün kifayət qədər əhəmiyyətli məsələlər müzakirəyə çıxarılmışdı. Azərbaycan Prezidenti "Strateji baxış: Avrasiya" mövzusunda interaktiv iclasda iştirak edib. Aydındır ki, bu iclas, bütövlükdə, Avrasiya üçün çox aktual olan problemə həsr edilib. Çünki hazırda planet üçün əhəmiyyəti olan proseslər, məhz Avrasiyada cərəyan edir. Burada ziddiyyətlər, risklər və təhdidlərlə yanaşı, əməkdaşlığın perspektivləri də liderləri maraqlandırır.

### "Azərbaycanın regional və beynəlxalq təşkilatlarda iştirakı praqmatizmə əsaslanır"

Panelin moderatorunun suallarını cavablandıran Prezident deyib ki, bizim qonşularımıza münasibətdə siyasətimiz mehribandır, lakin, eyni zamanda, milli maraqlarımız həmişə birinci yerdədir: "Azərbaycanın müxtəlif regional və beynəlxalq təşkilatlarda iştirakı praqmatizmə əsaslanır". Prezident İlham Əliyev onu da bildirib ki, Azərbaycanın əsas ideologiyası ölkənin maraqlarını və vətəndaşlarının mənafeyini qorumaqdır: "Azərbaycanın əsas ideologiyası müstəqillik, özünü təmin etməkdir. Mən prezident kimi, Azərbaycanı - özünü təmin edən, heç kəsdən asılı olmayan dövlətə çevirməyi qarşıma məqsəd qoydum. Başqa sözlə desək, iqtisadi müstəqillik əsas prioritet idi, çünki bu, siyasi müstəqilliyin təməlidir".

Dövlət başçısının sözlərinə görə, müxtəlif ölkələrin məqsədləri və iqtisadi sistemlərin zəifliyi fərqlidir: "Çox əlverişli və cəlbedici coğrafi mövqeyimiz, enerji təhlükəsizliyini təmin edən təbii ehtiyatlarımız var. Qonşu və tərəfdaşlarla münasibətlərimiz qarşılıqlı maraqlara əsaslanır - biz heç kəsdən asılı deyilik. Beynəlxalq təşkilatlarda iştirakımız praqmatizmlə əlaqədardır. Əgər bu, bizə biznes üçün böyük imkanlar verirsə, sabitlik, təhlükəsizliyi artırırsa, o zaman bunu vacib hesab edirik. Bir sıra beynəlxalq assosiasiyaların üzvüyük, misal üçün, Qoşulmama Hərəkatının".

### "Yenilənmiş Milli Məclis Azərbaycanda aparılan islahatların vacib hissəsi olacaq"

Dövlət başçısı 9 fevralda keçiriləcək parlament seçkiləri ilə də bağlı məsələyə də toxunaraq bildirib ki, parlament seçkilərdən sonra bütün diqqətini islahatların aparılmasına yönəldəcək: "Azərbaycanda fevralın 9-na təyin olunan parlament seçkilərinin nəticələri əsasında formalaşdırılacaq Milli Məclisin yeni tərkibi ölkədə aparılan sosial-iqtisadi islahatların vacib hissəsi olacaq".

Prezidentin sözlərinə görə, Azərbaycanda aparılan islahatlar çərçivəsində ölkə hökumətinin tərkibi əhəmiyyətli dərəcədə yenilənib: "Hökumətin tərkibi dəyişdirildi. Hökumətdə yeni insanlar meydana çıxdı. Bunlar müasir baxışları olan yüksək təhsilli gənclərdir. Dəfələrlə demişəm ki, XXI əsrdə uğur yalnız XX əsrin baxışlarına köklənməməklə mümkündür. Buna görə yeni insanlar təkcə hökumətdə deyil, həm də Prezident Administrasiyasında lazımdır. Burada da böyük dəyişikliklər baş verdi".

Prezident İlham Əliyev Azərbaycanın qonşu ölkələrə qarşı dostluq siyasəti yürütdüyünü də vurğulayıb: "Ancaq milli maraqlar bizim üçün hər şeydən üstündür. Siyasi-iqtisadi sahədə çox ciddi islahatlar aparmağa nail olduq. Əldə etdiyimiz nailiyyətlər Dünya İqtisadi Forumunun qiymətləndirmələrində və Davos Forumunun işində öz əksini tapıb. Biz infrastruktur, yolların keyfiyyəti sahəsində çox şey əldə etdik - bu göstərici ilə dünyada 27-ci yerdəyik".

Ölkə rəhbəri infrastruktur islahatları barədə də geniş məlumat verib: "Hesab edirəm ki, əvvəllər biz, əsasən, infrastruktur layihələrinə sərmayə yatırmışıq. Buna görə yenə də Davos Forumuna əsasən, Azərbaycan bu gün elektrik enerjisinə çıxış imkanına görə ikinci yerdədir. Azərbaycanda qazlaşdırma səviyyəsi 96 faiz təşkil edir. Biz 16 min kilometr yol, 3 mindən çox məktəb və 700 xəstəxana inşa etmişik. Lakin bunlar dövlət sərmayəsinin bir hissəsi idi. İndi bizə nə lazımdır? Bizdən yaxşı idarəçilikdə, şəffaflıqda, hesabatlılıqda, həyat və yaşayış standartları ilə bağlı meyarların Avropa İttifaqının standartlarına daha da yaxınlaşması üçün yeni yanaşma tələb olunur. Hesab edirəm ki, bu, mümkündür. Buna nail olmaq olar, çünki bizim güclü siyasi dəstəyimiz var".

### "Bizim iqtisadi artımımız əhalinin artımına uyğun gəlməlidir"

Dövlət başçısı əhalinin artımı məsələsinə də toxunaraq, bildirib ki, bu iqtisadi artımla üst-üstə düşür: "Beləliklə, yeni hökumət əsas diqqətini artan əhalidən ibarət olan böyük çağırış üzərinə yönəldəcək. Buna görə də, bizim iqtisadi artımımız əhalinin artımına uyğun gəlməlidir. Müstəqillik illərində əhalimizin sayı 7 milyondan 10 milyona qədər artdı. Beləliklə, əhaliyə əlavə infrastruktur, əlavə ərzaq təminatı tələb olunur. Bizim əhalimiz hər il 100 mindən çox artır. Bu isə, o deməkdir ki, bizə ən azından, ildə 100 min iş yeri lazımdır. Bu, asan deyil. Buna görə də hökumət bu məsələ ilə məşğul olacaq. Biz yoxsulluğu bugünkü səviyyədə - 5 faizdən aşağı səviyyədə saxlamağa çalışacağıq. Həmçinin, bizim birbaşa xarici borcun azaldılması ilə bağlı uzunmüddətli strategiyamız var. Bu gün bu borc çox aşağıdır, ümumi daxili məhsulun 17 faizini təşkil edir. Lakin bizim hədəfimiz onu ümumi daxili məhsulun 10 faizinə qədər endirməkdir. Əlbəttə ki, inflyasiyanı keçən il olduğu kimi, 2,5 faiz səviyyəsində, aşağı səviyyədə saxlanılması məsələsi üzərində də işləyəcəyik. İnsanların gəliri həmişə inflyasiyanı üstələməlidir, habelə, iş yerlərinin yaradılması da demoqrafik artımdan daha çox olmalıdır".

Bir sözlə, bütün bu məqamlar Prezident İlham Əliyevin Davosa olan səfərinin çox səmərəli keçdiyini təsdiqləyir. Forumda həm dünyanı maraqlandıran taleyüklü məsələlərin müzakirəsində iştirak etmək, həm də konkret olaraq, Azərbaycan üçün aktual məsələləri müzakirə etmək, müxtəlif ölkə rəhbərləri ilə görüşlər keçirmək bu baxımdan əhəmiyyətli addımlardır. Şübhə yoxdur ki, forumdakı müzakirələrdə əldə edilən nəticələr əsasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi Azərbaycanda müstəqil dövlət quruculuğu prosesinə təsirli təkan verən faktorlardan olacaq. Ümumilikdə, Azərbaycanın beynəlxalq nüfuzu daha da yüksələcək, əməkdaşlığın inkişafı və ölkəmizə investisiya axınının artması üçün daha geniş imkanlar yaranacaq. Azərbaycan növbəti Davos Forumunda yeni uğurları ilə iştirak edəcək.

Ancaq bu gün ölkəmizin bu uğurlarını həzm edə bilməyən bəzi qərəzli qurum və təşkilatlar anlamalıdırlar ki, Azərbaycana qarşı nə qədər qərəzli olsalar da, faktlar qarşısında geri çəkilməyə məcburdurlar və məcbur olacaqlar. Belə ki, Azərbaycan hər il əldə etdiyi nailiyyətlərlə dünyanın sivil, demokratik və dinamik inkişaf edən ölkələri sırasında yer aldığını konkret faktlar əsasında dünyaya sübut edir. Davos Forumu da bu bağlılıqda istisna deyil.

**RƏFİQƏ KAMALQIZI**

# Nazirlər Kabinetində Baş Nazirin sədrliyi ilə müşavirə keçirilib



***Yanvarın 24-də Nazirlər Kabinetində Baş Nazir Əli Əsədovun sədrliyi ilə müşavirə keçirilib. AZƏRTAC xəbər verir ki, müşavirədə Prezident İlham Əliyevin icbari sığortanın tətbiqi ilə bağlı qarşıya qoyduğu vəzifələr müzakirə edilib.***

Baş Nazir Əli Əsədov çıxış edərək bildirdi ki, Prezident İlham Əliyev 2020-ci ilin yanvarın 13-də keçirdiyi müşavirədə əmlakın sığortalanması ilə bağlı ciddi maarifləndirmə işlərinin aparılması və əmlakın sığortalanması məsələsinin müasir standartlara uyğunlaşdırılması ilə əlaqədar tapşırıq verib. Diqqətə çatdırıldı ki, maarifləndirmə ilə yanaşı, marketinq işləri də aparılmalı və vətəndaşların əmlakın sığortalanmasında maraqlı olmaları üçün müvafiq tədbirlər görülməlidir. Əmlakın sığortası vətəndaşların da mənafelərinə cavab verir. Vətəndaşlar daşınmaz əmlaklarını icbari qaydada sığortalamaqla, fövqəladə hallarda riskləri minimuma endirmiş olurlar. İcbari sığorta ilə əlaqədar qanunvericilik bazasının formalaşdırıldığını deyən Baş Nazir qeyd etdi ki, dövlətimizin başçısı əmlakın sığortalanması işinin vətəndaşla sığorta şirkətlərinin qarşılıqlı maraqları çərçivəsində həyata keçirilməsinə üstünlük verir. Bu məsələdə də maarifləndirmə mühüm amildir.

Mərkəzi Bankın sədri Elman Rüstəmov "Azərbaycan sığorta bazarı: strateji baxış" adlı təqdimatla çıxış etdi. Sığortanın 3 əsas sosial-iqtisadi rolunun olduğunu deyən E.Rüstəmov bildirdi ki, buraya əhalinin və biznesin iqtisadi təhlükəsizliyi, əhalinin sosial müdafiəsinin təmin edilməsi və iqtisadiyyatın uzunmüddətli investisiya mənbələri ilə təmin olunması daxildir. Azərbaycanda müxtəlif fəaliyyət növlərinə dair sığorta haqqında qanunların, normativ-hüquqi aktların qəbul olunduğunu deyən Mərkəzi Bankın sədri bu sektorda qarşıda duran vəzifələri vurğuladı və təkliflərlə çıxış etdi.

İcbari Sığorta Bürosunun icraçı direktoru Rəşad Əhmədov qurum tərəfindən sığorta bazarında görülən işlər barədə məlumat verdi. Qeyd etdi ki, əhalinin maarifləndirilməsi üçün xüsusi çarxlar hazırlanıb və mətbuatda, sosial şəbəkələrdə yayılıb. İcraçı direktor maarifləndirmə tədbirlərinin təhsil müəssisələrini də əhatə etməsinin vacibliyini bildirdi və bu istiqamətdə də tədbirlərin görüləcəyini dedi. Avtomobil və əmlak sığortalarından da danışan R.Əhmədov innovativ sistemlərdən istifadənin gündəmdə olduğunu vurğuladı.

Aqrar sığortanın ölkəmizdə tətbiqi istiqamətində görülən işlərdən və qarşıda duran vəzifələrdən söz açan Kənd Təsərrüfatı naziri İnam Kərimov isə qeyd etdi ki, ötən il Prezident İlham Əliyev tərəfindən həyata keçirilən islahatlar aqrar sığortanı da əhatə edib. Ölkədə aqrar sahənin davamlılığının təmin edilməsi üçün yeni aqrar sığorta mexanizminin tətbiqi zərurəti yaranmış və uğurlu kənd təsərrüfatı sığorta mexanizmləri olan ölkələrin təcrübəsi araşdırılmışdır. Ən uğurlu modelin tətbiqi üçün qanunvericilik layihəsi hazırlanıb, ötən il "Aqrar sığorta haqqında" Qanun qəbul edilib, Aqrar Sığorta Fondu təsis olunub. Yeni sistemə əsasən qeyri-kommersiya prinsipləri ilə tənzimlənən və özəl sektorun iştirakını təmin edən dövlət-özəl sektor əməkdaşlıq modeli tətbiq ediləcək. Nazir ilk aqrar sığorta məhsulunun 2020-ci ilin sonunadək geniş istehlakçı kütləsinə təqdim edilməsinin planlaşdırıldığını vurğuladı. Sonra Kənd Təsərrüfatı Nazirliyinin "Aqrar sığortanın tətbiqi" adlı təqdimatı nümayiş olundu.

İqtisadiyyat naziri Mikayıl Cabbarov bildirdi ki, əmlakın sığortası dövlət əmlakına da şamil edilməlidir və burada böyük ehtiyatlar var. O, həmçinin qeyd etdi ki, vətəndaşın və sığorta şirkətlərinin qarşılıqlı inamını artırmaq, bu işdə vətəndaşları daha çox maraqlandırmaq üçün yollar axtarılmalıdır. Maliyyə naziri Samir Şərifov qeyd etdi ki, son 10 ildə dövlət təbii hadisələrdən ziyan çəkən vətəndaşlara kömək üçün 970 milyon manat vəsait xərcləyib.

Fövqəladə Hallar naziri Kəmaləddin Heydər isə vurğuladı ki, qanunvericilikdə müvafiq düzəlişlər edilməsinə ehtiyac var.

Ədliyyə nazirinin müavini Azər Cəfərov dedi ki, qanunvericilik sahəsində zəruri olan bütün proseslərdə yaxından iştirak etməyə hazırdırlar. "ASAN xidmət"in rəhbəri Ülvi Mehdiyev, FHN-in müavini Rafael Mirzəyev və digərləri çıxış edərək, görülən işlərdən və qarşıda duran vəzifələrdən danışdılar.

Baş Nazir Əli Əsədov müşavirəyə yekun vuraraq, Nazirlər Kabinetinin 2019-cu il 21 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Sığorta sektorunun inkişafına dair 2019-2021-ci illər üçün Tədbirlər Planı"nda nəzərdə tutulmuş işlərin sürətləndirilməsinin və bununla bağlı mütəmadi hesabat verilməsinin vacibliyini bildirdi. Qeyd etdi ki, aqrar sığorta sahəsində qəbul edilmiş qərarların da icrası daim diqqətdə saxlanılmalı və bu istiqamətdə işlər sürətləndirilməlidir.

Qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsi üçün aidiyyəti qurumların rəhbərlərinə müvafiq tapşırıqlar verən Baş Nazir Əli Əsədov görülmüş işlərin nəticələrini 3 aydan sonra yenidən müzakirə ediləcəyini bildirdi.




# İlham Əliyev Davos Forumunun tribunasından Azərbaycan reallıqlarını dünyaya çatdırır

Azərbaycan gəncləri küçələrdə deyil, gənclər universitetlərdə, məktəblərdədir, startap biznesindədirlər, onlar hökumət məsələlərinə fəal cəlb olunublar. Biz çox nəhəng könüllülər hərəkatına başlamışıq və on minlərlə insan ictimai xidmətlər sektorunda könüllülər qismində təlimlərdə iştirak edib. Sonra da biz yaxşı nəticələr göstərənləri hökumət təşkilatlarına işə götürürük.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu barədə Davos Dünya İqtisadi Forumunda danışıb.

"Strateji baxış: Avrasiya" mövzusunda keçirilən panel iclasında moderatorun "Ölkənizdə gənclər küçəyə çıxsa və daha çox səs tələb etsə, Siz onlara nə deyərdiniz?" sualını cavablandıran Prezident İlham Əliyev deyib: "Səmimi danışsaq, dünyanın müxtəlif yerlərində gənclərin küçələrdə olması onları nəyinsə qane etmədiyinə görə baş verir. Onları həyat qane etmir, onların hökumətə olan etimadı itib. Hökumət hakimiyyətə gəlmək üçün populist şuarlardan istifadə edib, lakin sonra vəd etdiklərini yerinə yetirə bilməyib. Əslində, onlar yalan danışıblar. Bunun əsas səbəbi isə siyasətçilərin məsuliyyətsizliyidir. Çünki biz təkcə Avropada yox, bir çox ölkələrdə onu müşahidə edirik ki, hökumət hakimiyyətə gəlir və dərhal hökumətin rəhbəri təzyiq altında olur. İnsanlar onu seçir, lakin bir ildən sonra o, ona göstərilən etimadı itirir. Çünki yerinə yetirilməsi mümkün olmayan vədlər verilib. Azərbaycanda biz həmişə sözümüzə əməl edirik. Biz heç vaxt yerinə yetirə bilməyəcəyimiz məsələləri dilimizə gətirmirik və insanlarımızın həyat standartları ildən-ilə daha da yaxşılaşır".

Prezident İlham Əliyev Davos Forumunun tribunasından istifadə edərək Azərbaycan həqiqətlərini dünyaya çatdırır. Dövlətimizin başçısının qeyd etdiyi kimi, Forum Azərbaycan reallıqlarını beynəlxalq ictimaiyyətə təqdim etmək üçün gözəl bir platformadır.

Azərbaycanda geniş vüsət alan könüllülük hərəkatına gəlincə, bu, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. Təsadüfi deyil ki, Prezidentin Sərəncamı ilə 2020-ci il Azərbaycanda "Könüllülər ili" elan edilib.

Könüllülük fəaliyyətinin təşviqi məqsədilə Azərbaycan dövləti tərəfindən zəruri addımlar atılıb, normativ hüquqi baza təkmilləşdirilib, dövlət dəstəyi mexanizmləri formalaşdırılıb. Azərbaycanda könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilib. Ölkəmizdə bir çox könüllü hərəkatları yaranıb, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qrupları formalaşıb. Azərbaycan könüllüləri kreativliyi, təşəbbüskarlığı, innovativ düşüncə tərzi və müasir dünyagörüşləri ilə ölkəmizdə "Eurovision" mahnı müsabiqəsi, I Avropa Oyunları, Formula 1 yarışları, IV İslam Həmrəyliyi Oyunları və digər irimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsində mühüm rol oynayıblar.

# Aurelia Qriqoriu: "Yeni parlamentdə Azərbaycanın daha da inkişafına töhfə verəcək şəxslərin yer alacağına ümid edirəm"



Azərbaycanda formalaşacaq parlamentdən islahatların həyata keçirilməsində və qarşıda duran vəzifələrin icrasında daha keyfiyyətli dəyişikliklər gözləyirəm. Bunu secki-2020.az saytına açıqlamasında Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Moldova nümayəndəliyinin direktoru, tanınmış hüquqşünas Aurelia Qriqoriu deyib. Onun sözlərinə görə, istənilən dövlətin inkişafında qanunverici orqanın keyfiyyətinin mühüm əhəmiyyəti var. "Azərbaycan Prezidentinin fəaliyyəti çox perspektivlidir və necə deyərlər, zamanı qabaqlayır. Bu mənada, parlamentin də fəaliyyəti ölkənin qarşısında duran vəzifələrə uyğun olmalıdır", - deyə o vurğulayıb. Aurelia Qriqoriu yeni formalaşacaq parlamentdə Azərbaycanın daha da inkişafına töhfə verəcək mütərəqqi və yaradıcı insanların yer alacağına ümid etdiyini söyləyib.

# “Mədəniyyətlərin dialoqu xalqların dialoqunun əsasıdır” mövzusunda dəyirmi masa keçirilib



***Azərbaycan ilə Rusiya arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi məqsədilə Bakıda “Bakı-Moskva: mədəniyyətlərin dialoqu” konfransı keçirilir. Konfrans Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, Moskva Hökumətinin və TASS informasiya agentliyinin dəstəyi ilə təşkil edilib. Yanvarın 24-də konfrans çərçivəsində “Mədəniyyətlərin dialoqu xalqların dialoqunun əsasıdır” mövzusunda dəyirmi masa keçirilib.***

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Mədəniyyət naziri Əbülfəs Qarayevin, TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmanın və Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoyun moderatorluğu ilə keçirilən tədbirdə Azərbaycan Prezidenti Administrasiyasının humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, dövlət və hökumət strukturlarının nümayəndələri, tanınmış mədəniyyət, təhsil və elm xadimləri, hər iki ölkədən olan jurnalistlər iştirak ediblər.

Tədbirdə çıxış edən Əbülfəs Qarayev vurğulayıb ki, bu konfrans ölkələrimizin ekspertləri, incəsənət xadimləri, alimlər və ictimai xadimlər arasında əlaqələri nizamlamağa və genişləndirməyə imkan verəcək. “Belə tədbirlərin keçirilməsi insanların bir-birini və ölkələrin mədəniyyətlərini daha yaxşı anlamağa, üzləşməli olduğumuz müxtəlif fobiya və təhdidlərə qarşı birləşməyə xidmət edir”, - deyən nazir vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə təsirli və səmərəli mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məqsədilə başlanmış “Bakı Prosesi” müxtəlif formatlarda həyata keçirilir: “Azərbaycanın paytaxtında keçirilən konfrans çərçivəsində bu ilin payızında nəzərdə tutulan humanitar forumun işinin təməli qoyulacaq. Biz Rusiya ilə bu mədəniyyətlər dialoqunu həmin foruma hazırlıq məqsədilə təşkil etmişik. Bu, iki paytaxt arasında müəyyən mənada ilk tədbirdir”.

Mixail Qusman çıxışında bu konfransın keçirilməsinə göstərdikləri dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlığını bildirərək deyib: “Ölkələrimizi dərin tarixi köklər bağlayır. Rusiyadan bu tədbirə görkəmli ictimai xadimlərdən və mədəniyyət xadimlərindən ibarət böyük nüfuzlu nümayəndə heyəti gəlib. Onlar hamısı Bakıda olmalarına görə çox sevinirlər. Məsələ təkcə Azərbaycana xas olan ənənəvi qonaqpərvərliklə deyil, həm də nümayəndə heyətini əhatə edən dostluq, əməkdaşlıq və diqqət ilə bağlıdır”.

Mixail Qusman xüsusi qeyd edib ki, ulu öndər Heydər Əliyev ölkələrimiz arasında dostluq və tərəfdaşlıq münasibətlərinin təşəkkülünə böyük töhfə verib. O deyib: “Ümummilli lider Heydər Əliyevin Azərbaycan ilə Rusiya arasında münasibətlərə, bizim mədəni əlaqələrimizə necə böyük əhəmiyyət verdiyini hamımız xatırlayırıq. Bugünkü konfrans onun vəsiyyətlərinin təcəssümüdür”.

Mixail Şvıdkoy qeyd edib ki, beynəlxalq gündəlikdə çox böyük əhəmiyyət kəsb edən Bakı Beynəlxalq Forumu həqiqətən planetar miqyaslı hadisəyə çevrilib: “Bakı Forumu təkcə ikitərəfli münasibətlər üçün deyil, çoxtərəfli münasibətlər üçün də mühüm hadisədir. O, ən müxtəlif ölkələrin, o cümlədən ABŞ, Avropa, Mərkəzi Asiya və Uzaq Şərq ölkələrinin nümayəndələrinin diqqətini cəlb edir. Budəfəki konfrans göstərir ki, bizi əsrlərboyu davam edən insani dostluq münasibətləri bağlayır”.

Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova qeyd edib ki, mədəniyyətlərin dialoqu qarşılıqlı hörmətin göstəricisi və təmas nöqtələri axtarışıdır. O deyib: “Mədəniyyətlərin dialoqu o deməkdir ki, mədəniyyətlər və ənənələr kənardan zorla qəbul etdirilməsin. Həm Rusiya, həm də Azərbaycan elə bir vəziyyətlə üzləşir ki, bizim necə yaşamalı, nəyi dəyişməli, nəyi keçmişdən saxlamalı, kiminlə ünsiyyət qurmalı və dostluq etməli olmağımız barədə bitib-tükənməz məsləhətlər verirlər, bunları zorla qəbul etdirməyə çalışırlar. Mədəniyyətlərin dialoqu ənənələri qoruyub saxlamaqla ümumi dəyərlər tapmaq bacarığıdır. Mədəniyyətin bu tərəfini inkişaf etdirmək lazımdır”.

Xalq yazıçısı Anar, akademik Kamal Abdullayev, Xalq artisti Fərhad Bədəlbəyli, Xalq rəssamı Fərhad Xəlilov, RF Federasiya Şurasının beynəlxalq məsələlər komitəsinin sədri Konstantin Kosaçov, rusiyalı şair Aleksandr Qorodnitski və digər çıxış edənlər vurğuladılar ki, bu gün, Rusiya ilə Azərbaycanın münasibətləri bütün istiqamətlərdə intensiv inkişaf etdiyi bir vaxtda mədəni əlaqələr birləşdirici vəsilədir. Vurğulanıb ki, bəzən mədəni əməkdaşlıq siyasi və iqtisadi əməkdaşlıqla müqayisədə heç də az rol oynamır. Mədəniyyət, təhsil və elm sahələri Azərbaycan-Rusiya strateji tərəfdaşlığının uğurlu inkişafında böyük amillərdir. İki ölkənin dövlət başçılarının səmimi dostluq münasibətləri bu prosesdə həlledici amildir. Qeyd edilib ki, bu cür tədbirlər humanitar əməkdaşlığın möhkəmlənməsində mühüm rol oynayır.

Dəyirmi masanın gedişində Moskva Şəhər Mədəniyyət Departamenti ilə Bakı Şəhər Baş Mədəniyyət İdarəsi arasında əməkdaşlıq haqqında Müqavilə imzalanıb.

Qeyd edək ki, konfrans çərçivəsində Rusiyada yaşayan görkəmli azərbaycanlılara və Azərbaycanda yaşayan rusların məşhur nümayəndələrinə həsr edilmiş fotosərgi keçirilməsi planlaşdırılır. Sərgi TASS informasiya agentliyi tərəfindən Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) ilə birgə təşkil olunub.Konfrans çərçivəsində TASS informasiya agentliyinin baş direktorunun birinci müavini, Rusiya Federasiyasının Əməkdar jurnalisti Mixail Qusmanın “Hakimiyyət formulu” və “Həyat formulu” kitablarının təqdimatı və digər mədəni tədbirlər nəzərdə tutulur.

## Yuli Qusman: “Azərbaycanın demokratik inkişafı parlament seçkilərindən sonra da davam edəcək”



“Seçkilər bütün cəmiyyətlərin inkişafında mühüm rola malikdir. Azərbaycan xalqına fevralın 9-da keçiriləcək parlament seçkilərində uğurlar arzulayıram. İnanıram ki, parlament seçkilərindən sonra da Azərbaycanın demokratik inkişafı davam edəcək.” Bunu secki-2020.az saytına açıqlamasında Rusiyanın Əməkdar incəsənət xadimi, Azərbaycanın Xalq artisti, məşhur teatr və kino rejissoru Yuli Qusman bildirib. “Əminəm ki, seçkilər ən yüksək səviyyədə və demokratik prinsiplər əsasında keçiriləcək”, - deyə Y.Qusman vurğulayıb.

## Corc Dik: “İsrail Azərbaycanın ərazi bütövlüyünü tam dəstəkləyir”

İsrail Azərbaycanın ərazi bütövlüyünü və ATƏT-in Minsk qrupunun həmsədrlərinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı səylərini tam dəstəkləyir. AZƏRTAC xəbər verir ki, bunu İsrailin Azərbaycandakı səfiri Corc Dik yanvarın 24-də keçirdiyi mətbuat konfransında deyib. C. Dik vurğulayıb ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi sülh və dialoq yolu ilə həll olunmalıdır. Tərəflər arasında əldə olunacaq razılaşmaya İsrail tərəfi də hörmət edəcək.

Səfir, həmçinin qeyd edib ki, İsrail və Azərbaycan təhlükəsizlik və terrorla mübarizə sahələrində sıx əməkdaşlıq edirlər. İsrail ilə Azərbaycan arasında strateji münasibətlərin yüksək qiymətləndirildiyini, bu iki ölkənin dostluğunun hər kəs tərəfindən tanındığını və ona hörmət edildiyini deyən C.Dik bildirib: “Martın 2-də İsraildə parlament seçkiləri keçiriləcək. Deməliyəm ki, seçkilərin nəticələrindən asılı olmayaraq, ölkələrimiz arasındakı əlaqələr inkişaf etməyə davam edəcək. Azərbaycan İsrail üçün dost və tərəfdaş ölkədir”.

Diplomat vurğulayıb ki, Azərbaycan bütün dinlərə mənsub insanların yan-yana yaşadığı ölkədir. Azərbaycandakı yəhudi icması özünü evindəki kimi hiss edir. Holokostun anım mərasimində ölkəmizin də təmsil olunduğunu bildirən səfir qeyd edib ki, bu, Azərbaycanın İsrail xalqına və dövlətinə münasibətini göstərir.

Bundan başqa, diplomat qeyd edib ki, İsrail idxal etdiyi neftin əsas hissəsini Azərbaycandan alır. Ötən il Azərbaycana səfər edən israilli turistlərin sayı 60 min nəfər olub. Bu, 2016-cı illə müqayisədə 5 dəfə artım deməkdir. Azərbaycanın gələn ay İsraildə keçiriləcək beynəlxalq turizm sərgisində pavilyonla təmsil olunacağını qeyd edən səfir bildirib. “Azərbaycandan olan nümayəndə heyəti gələn həftə İsraildə kibertexnologiyalar mövzusunda keçiriləcək tədbirə də qatılacaq. Azərbaycanda kənd təsərrüfatı sahəsində İsrailin yeni texnologiyaları tətbiq olunur. Ölkələrimiz arasında münasibətlərin daha da gücləndirilməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm”.



# Azərbaycanın Avropa Şurası ilə əməkdaşlığı davamlıdır

*Müstəqil dövlət olaraq, Azərbaycan xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla ikitərəfli münasibətlərinə, xüsusi əhəmiyyət verir. Öz təhlükəsizliyi, ərazi bütövlüyü və müstəqilliyini qorumaq imkanlarını möhkəmləndirmək naminə, dövlətimiz bu münasibətlərin daha da inkişaf etdirilməsində maraqlıdır. Mövcud münasibətlərin inkişafı Azərbaycanın iqtisadi və siyasi tərəqqisinə, Xəzər neft və qaz layihələrinin gerçəkləşdirilməsinə və Şərqlə Qərbi birləşdirən trans-regional dəhlizlərin yaradılmasına təkandır. Ölkəmiz bir çox təşkilatlarla yanaşı, Avropa Şurası ilə də münasibətlərə böyük əhəmiyyət verir.*



Bu gün Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul olunmasından 19 il keçir. Azərbaycanın dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarından biri olan Avropa Şurasına üzv olaraq qəbulunun ölkəmizin beynəlxalq münasibətlər sistemindəki mövqeyinin formalaşmasında önəmli rolu danılmazdır. Müstəqilliyinin ilk illərində ağır daxili və xarici böhran yaşayan Azərbaycan bu beynəlxalq təşkilata tamhüquqlu üzv olmaq üçün çətin yol qət edib. Tarixi yolların qovuşuğunda yerləşən ölkəmizin Avropa Şurasına qəbul olunması həm Azərbaycan, həm də bu təşkilat üçün çox mühüm hadisədir.

2001-ci il yanvarın 17-də Avropa Şurası Nazirlər Komitəsinin nümayəndələr səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə dair qərar qəbul edilir və 2001-ci il yanvarın 25-də Ümummilli Lider Heydər Əliyevin iştirakı ilə Strasburqda Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi münasibətilə rəsmi mərasim keçirilir. Məhz həmin dövrdən qurumun binasının qarşısında dövlətimizin bayrağı dalğalanır. Azərbaycan Respublikasının AŞPA-dakı nümayəndəliyi isə Prezident İlham Əliyevin rəhbərliyi ilə, ilk dəfə olaraq, bu qurumun iclasında tamhüquqlu üzv kimi iştirak edib və ölkəmizin bu uğuru, heç şübhəsiz ki, tarixi əhəmiyyət daşıyır. Ümummilli Lider Heydər Əliyevin dediyi kimi, "Tarixi yolların qovuşuğunda yerləşən ölkəmizin Avropa Şurasına qəbul olunması həm Azərbaycan üçün, həm də bu təşkilat üçün çox mühüm hadisədir".

2001-ci ildə Ulu Öndər Heydər Əliyevin ölkəmizin Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə həsr olunmuş rəsmi mərasimdəki çıxışında qeyd etdiyi kimi, Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi onun müstəqil, suveren, demokratik və dünyəvi dövlət kimi tanınmasıdır. Eyni zamanda, belə bir mötəbər təşkilata üzv qəbul edilmək həm də Avropa ailəsinin bərabər hüquqlu üzvü kimi Azərbaycan dövlətinin inkişafında yeni mərhələnin başlanğıcıdır.

Azərbaycan Avropa Şurasına üzv olduqdan sonra ilk dəfə 2014-cü il mayın 14-dən altı aylıq dövr üçün təşkilatın Nazirlər Komitəsində sədrlik edib. Sədrlik dövründə Azərbaycan Avropa Şurasının fəaliyyətinin əsas sütunlarını təşkil edən insan hüquqları, qanunun aliliyi və demokratiyanın daha da inkişafı istiqamətində mühüm səylər göstərib, bu xüsusda, qurumun üzv ölkələri və müxtəlif təsisatları ilə qarşılıqlı anlaşma şəraitində çalışıb.

Azərbaycan Respublikasının sədrliyinin prioritetləri Avropa Şurasının gündəliyində duran aktual məsələlər, üzv dövlətlərin üzləşdikləri təhdidlər, ölkəmizin müsbət təcrübəsi və fərqli üstünlükləri nəzərə alınmaqla, korrupsiyaya qarşı mübarizə, mədəniyyətlər və dinlərarası dialoq, sosial həmrəylik və sosial davamlılıq, gənclərin hüquqi maarifləndirilməsi kimi sahələri əhatə edirdi. Azərbaycanda mühüm beynəlxalq tədbirlərin keçirilməsi isə, heç də təsadüfi deyil və həmin prioritetlərin dəstəklənməsi məqsədi daşıyır ki, bu da Azərbaycanın uğurudur.

Azərbaycanın Avropa Şurasına üzvlüyündən sonrakı dövr ərzində ölkəmizin qurum qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsinin nəzərdən keçirilməsi məqsədilə, AŞPA-nın monitorinq komitəsinin respublikamız üzrə həmməruzəçilərinin, mütəmadi olaraq, Bakıya səfərləri təşkil edilir. Çox sevindirici haldır ki, hər dəfə hazırlanmış məruzələrdə Azərbaycanın üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi yüksək qiymətləndirilib. Həmin məruzələrdə, eyni zamanda, ölkəmizin demokratiya sahəsində mühüm inkişafa nail olduğu, xüsusilə qeyd edilib. Onu da qeyd etmək yerinə düşərdi ki, Azərbaycan Avropa Şurasına üzv olduğu müddətdə qurumun bir sıra önəmli sahələri əhatə edən sənədlərinin hazırlanmasının və qəbulunun da iştirakçısı olub.

Bu gün Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlıq yüksək səviyyədədir və qurum tərəfindən bu əməkdaşlıq yüksək qiymətləndirilir. Çünki ölkəmiz bu quruma üzv olduğu vaxtdan indiyədək demokratiyanın inkişafı, insan haqlarının və azadlıqlarının qorunması, vətəndaş cəmiyyətinin qurulması yolunda böyük uğurlar qazanıb və bu qurum tərəfindən də təsdiq olunub. Heç şübhə yoxdur ki, hazırda Azərbaycan Avropa Şurasının insan haqlarının qorunması, demokratiyanın daha da inkişaf etdirilməsi, qlobal problemlərin həllinə yardım göstərilməsi, beynəlxalq öhdəliklərə vicdanla əməl edilməsi kimi prinsiplərini rəhbər tutaraq, bu qurumla əməkdaşlığı dinamik şəkildə inkişaf etdirir.

Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv seçildikdən sonra bu qurumla əlaqələrin genişləndirilməsi istiqamətində önəmli addımlar atılıb. Heç də, təsadüfi deyil ki, 2003-cü il yanvarın 27-də AŞPA Bürosunun iclasında Azərbaycan Respublikasının Assambleyadakı nümayəndə heyətinin rəhbəri İlham Əliyev büronun üzvü və AŞPA-nın vitse-prezidenti seçilib.

Ölkəmizin Avropa Şurası kimi mötəbər bir təşkilata bərabərhüquqlu üzv kimi qəbul edilməsinin əhəmiyyətindən danışarkən, xüsusilə, vurğulamaq yerinə düşərdi ki, elə ilk sessiyadan başlayaraq, Ermənistanın işğalçılıq siyasətinin nəticələri avropalıların diqqətinə çatdırılır. Xüsusilə, qeyd etmək lazımdır ki, sessiyada 9 ölkə və AŞPA-da fəaliyyət göstərən 5 siyasi qrupu təmsil edən 29 nümayəndə tərəfindən imzalanmış "Ermənilər tərəfindən azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımının tanınması" adlı yazılı bəyanat və 14 ölkəni təmsil edən 20 nümayəndə tərəfindən imzalanmış "Ermənistan və Dağlıq Qarabağda saxlanılan müharibə əsirləri və girovları" adlı tövsiyə üçün təklif AŞPA-nın rəsmi sənədləri qismində yayılıb. Göstərilən sənədlərdə ermənilər tərəfindən Xocalı əhalisinin tamamilə qətlə yetirilməsi, Ermənistanın Azərbaycan ərazilərinin 20 faizini işğal etməsi, Ermənistanda və işğal altındakı Azərbaycan torpaqlarında uşaqlar, qadınlar və yaşlılar da daxil olmaqla, 783 azərbaycanlı girovun saxlanılması faktı və digər vacib məsələlər vurğulanıb. Sadalanan faktların sənədlərdə yer alması ölkəmizin uğuru və nailiyyətidir.

Avropa Şurasında bu günə qədər əldə edilən uğurlar və Azərbaycanın Avropaya inteqrasiya proseslərində iştirakı ölkəmizin bu beynəlxalq təşkilat ilə əlaqələrinin mühüm əhəmiyyət kəsb etdiyini təsdiq edir. Hazırda Azərbaycan Avropa Şurasının insan haqlarının qorunması, demokratiyanın daha da inkişaf etdirilməsi, qlobal problemlərin həllinə yardım göstərilməsi və beynəlxalq öhdəliklərə vicdanla əməl edilməsi kimi prinsiplərini rəhbər tutaraq, bu qurum ilə əməkdaşlığı inkişaf etdirir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Bakcell və İNNOLAND gənc developerləri investorlarla tanış edib

"Bakcell"in Applab proqramı və İNNOLAND İnkubasiya və Akselerasiya mərkəzi özlərinin birgə inkubasiya proqramının iştirakçıları üçün "Demo Day" (Demo Günü) tədbiri keçirib. Tədbirin məqsədi maliyyələşməyə ehtiyacı olan startaplar və sərmayə yatırmaq istəyən potensial investorları bir araya gətirmək və tərəflər arasında sağlam mühitdə davamlı əlaqələrin qurulmasına dəstək göstərməkdir.

Bakcell və İNNOLAND tərəfindən həyata keçirilən birgə inkubasiya proqramının finalçıları öz nailiyyət və yeniliklərini nümayiş etdirib perspektivli startaplara investisiya yatırmaq marağında olan şirkətlərin nümayəndələri və biznesmenlərlə tanış olmaq üçün dəvət olunublar. Bakcell tərəfindən dəstəklənən "Bon.az" (www.bon.az - onlayn "cashback" xidməti), "Towaves" (www.towaves.com - ortaq maraq və oxşar fikirləri olan insanları bir araya gətirən şəbəkə) və "Fonibo" (www.fonibo.com - ərzaq və yeməklərin çatdırılması platforması) startapları da layihə və gələcək planlarla bağlı məlumat vermək və potensial investorların diqqətini cəlb etmək imkanı qazanıblar.

2018-ci ildə Bakcell şirkəti ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin INNOLAND İnkubasiya və Akselerasiya Mərkəzi arasında tərəfdaşlıq müqaviləsi imzalanıb. Həmin müqavilə çərçivəsində Bakcell və INNOLAND yerli startaplar üçün birgə inkubasiya proqramı həyata keçirir. İnkubasiya müddəti ərzində startap komandaları öz layihələri üzərində daha effektiv şəkildə işləyərək startap ideyalarını uğurlu və innovativ biznesə çevirmək üçün INNOLAND və Bakcell tərəfindən təqdim olunan pulsuz ofis sahəsi, peşəkar məsləhətlər, avadanlıq, təlimlər və digər imkanlardan istifadə edirlər.

Xatırladaq ki, 2014-cü ildən etibarən müxtəlif proqram təminatı və avadanlığın yaradılması ilə məşğul olan yerli startaplar və developerlər öz ideyalarını həyata keçirmək üçün Bakcell şirkətinin AppLab proqramından dəstək alırlar.

# MSK: Hazırda deputatlığa namizədlərin sayı 1400 nəfərdir



Azərbaycanda 2020-ci ilin fevralın 9-na təyin edilmiş parlament seçkilərində iştirak etmək üçün 2431 nəfər müraciət edib. Mərkəzi Seçki Komissiyasının (MSK) saytında yer alan məlumatda deyilir ki, deputatlığa namizədliyi qeydə alınmış 1637 nəfərdən 237-si namizədliyini geri götürüb. Hazırda deputatlığa namizədlərin sayı 1400 nəfərdir.

# İcbari sığorta və cərimə tətbiqinin vəziyyəti




***Heç bir ölkə, heç bir cəmiyyət və eyni zamanda, heç bir şəxs təbii fəlakətlərin olmayacağına və yaxud bu fəlakətlərin acı nəticələrindən yan keçəcəyinə əmin ola bilməz. Ölkə daxilində belə son illərdə biz bunun müxtəlif bölgələrdə paytaxt Bakıda da şahidi olduq. İstər rayonlarda olan zəlzələlər, istərsə də paytaxtda baş verən yangın hadisələri təsdiq etdi ki, fövqəladə hadisələr hər an baş verə bilər. Heç kimin sığortalanmadığı bu hadisələrdən, sözün əsl mənasında, sığortalanmaq vacib məsələdir. Bu sığortalanmanın vacibliyini hər kəs dərk etməli və məhz bu mənada da, sığortalanma könüllü şəkildə reallaşdırılmalıdır. Bir sözlə, istər müəssisə və təşkilatlar, yəni hüquqi şəxslər, istərsə də vətəndaşlar, yəni fiziki şəxslər özlərinə məxsus olan mülkiyyəti öz istəkləri ilə, könüllü şəkildə sığortalamağa maraqlı olmalıdırlar.***

Doğrudur, sığortalanmanın nəyə görə vacib olması barədə maarifləndirmə bu gün öz aktuallığını qoruyur və öz əmlaklarını sığorta etdirməyin ən vacib məsələ olması barədə vətəndaşlar məlumatlandırılmalıdırlar. Bu barədə ölkə başçısı keçirdiyi müşavirədə də vurğulayıb və qeyd edib ki, vətəndaşlar evlərinin və əmlaklarının sığortalanmalı olduğunu bilməlidirlər. Cənab Prezidentin dediyi kimi, həqiqətən də, vətəndaşlar bilməlidirlər ki, öz əmlaklarını sığortalamaqla hər kəs hər hansı bir təbii fəlakətdən, fövqəladə hadisədən malını və mülkünü qorumuş olur. Çünki sığorta şirkətləri belə arzuolunmaz hadisələr samanı mülkiyyətini sığorta edən zərərçəkənlərin maddi ziyanını qarşılayırlar.

Dünya təcrübəsinə müraciət etsək belə, görərik ki, insanlar öz mülklərini sığortalamaqla dəymiş maddi ziyanı sığorta şirkətlərindən tələb edə bilirlər və məhz bu səbəbdən, heç bir risklə qarşılaşa bilməyəcəklərinə əmindirlər. İnkişaf etmiş ölkələrdə hər hansı ticarət obyektində, hansısa müəssisədə, məsələn, yanğın baş verdikdə, maliyyə məsuliyyətini sığorta şirkətləri daşıyır, çünki mülkiyyət qabaqcadan sığortalandığı üçün kompensasiya ödənişinə cabahdehlik, məhz həmin şirkətlərin üzərinə düşür. Təbii fəlakətlər nəticəsində şəxsi evlərə, malikanələrə, daşınan və ya daşınmaz əmlaka ziyan dəydiyi təqdirdə, yalnız sığortaçılar köməyə gəlir və onlara maliyyə yardımı edilir. Elə bu səbəbdən də, həmin ölkələrdə dövlət, bizdə olduğu kimi əlavə qaygı ilə qaygılanmır və əlavə vəsaitlərin izafi olaraq xərclənməsi kimi yükdən də azaddır. Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycanda olduğu kimi, heç bir ölkədə vətəndaşa dəymiş maddi ziyan dövlət tərəfindən qarşılanmır. Yəni təbii fəlakətlər və fövqəladə hadisələr zamanı zərər çəkən vətəndaşlara yardım edən Azərbaycan kimi ikinci bir ölkə yoxdur. Hər bir ölkədə dövlət vətəndaşa xidmət edirsə də, heç bir ölkədə dövlət Azərbaycandakı qədər yüklənməyib. Səbəb isə vətəndaşlarımızın öz əmlaklarını sığortalamamasıdır və məhz bu səbəbdən, vətəndaşlar da bilməlidirlər ki, dövlət özü də bu məsələdə maraqlıdır. Əks halda, bu ildən etibarən, daşınmaz əmlakın icbari sığortası üzrə cərimənin tətbiqi nəzərdə tutulmazdı. Xatırladaq ki, İnzibati Xətlar Məcəlləsinin 469.1-ci bəndində daşınmaz əmlakını icbari sığortalamaqdan yayındırdığına görə fiziki şəxslərin 30 manat, vəzifəli şəxslərin 80 manat, hüquqi şəxslərin isə 200 manat cərimə ödəməli olduqları qeyd olunur. Bir sözlə, mülkiyyətin sığortalanması icbari xarakter daşıyır və vətəndaşlar bu məsələdə qanun qarşısında cavabdehdirlər.

Əvvəla, qeyd etmək lazımdır ki, heç də bütün daşınmaz əmlakların kupça deyilən çıxarışları yoxdur. Deməli, cəza mexanizmi tətbiq ediləcəyi təqdirdə, heç də hər bir mülk sahibinə əmlakını sığortalamadığına görə cərimə tətbiqi şəklində cəza veriləcəyini söyləmək olmaz. Bir sözlə, cəza mexanizmi işləsə də, vətəndaşlara bərabər qaydada tətbiq edilməyəcək.

Digər tərəfdən, vətəndaşların paytaxt Bakıda 50 manat ödəməklə, daşınmaz əmlaklarını 25 min manat dəyərində, Sumqayıt, Gəncə və Naxçıvanda 40 manat ödəyərək, əmlakını 20 min manat dəyərində, digər yerlərdə isə 30 manat ödəyərək, əmlakını 15 min manat dəyərində sığortalaması özü də düzgün yanaşma deyil. İstər paytaxtda, istərsə də bölgələrdə olan mənzillərin heç də hamısı eyni mənzillər deyil və bir-birindən yaşayış sahəsinə, mərtəbəsinə, yerləşməsinə və ən vacib olan qiymətinə görə fərqlənirlər. Bəzilərində bu fərq, hətta kəskin şəkildədir. Axı belə olan halda, paytaxtdakı bütün mənzillərə görə 50 manat, bölgələrdə isə 40 və yaxud 30 manat olmaqla, eyni məbləğdə sığorta ödənişi hansı məntiqə əsaslanır? Nəzərə alsaq ki, daşınan əmlak kimi avtomobillərin sığortası zamanı da, mühərrikin həcmi nəzərə alınır və bu da sığortalanma zamanı qiymətə əhəmiyyətli dərəcədə təsir edir. Bu zaman, onu da nəzərə almaq lazımdır ki, avtomobillərin mühərriklərinin həcmi, fərqli olduğu kimi, mənzillərin də yaşayış sahəsi birbirindən fərlənə bilir və bu baxımdan qiymət tətbiqi də fərqli olmalıdır. Hətta onu da nəzərə almaq lazımdır ki, daşınmaz əmlakın mənzillərin avtomobillərdən daha çox fərqli tərəfləri var. Deməli, yanaşma daha həssas olmalı və fərqli şəkildə tətbiq edilməlidir.

Belə məlum olur ki, birinci növbədə, ölkədə sığorta fəlaiyyətini inkişaf etmiş ölkələr səviyyəsinə qaldırmaq görüləcək işlər sırasında ən vacibidir. Bunun üçün həm maarifləndirmə, həm təbliğat və təşviqat işləri aparılmalı, həm də sığorta biznesi fəaliyyətinin hüququ-normativ bazası yaradılmalıdır. Hüquqi-normativ baza yaradılmalıdır ki, bu fəaliyyət inkişaf etsin, həmçinin, tələblərə də cavab versin və vətəndaşların da, dövlətin də sığorta şirkətlərinə inamı və etibarı artsın. Məhz sığorta fəliyyətinin mükəmməl qurulması nəticəsində, əvvəla, sığortalanma məsələsi məntiqi şəkildə təşkil edilə bilər, daşınmaz əmlak sığortası müəyyən edilmiş hüquqi-normativ qaydalara əsasən diferensiallaşdırılar . Nəticədə isə, həm vətəndaş məmnunluğu artar, həm də dövlət bu vaxta qədərki əlavə qaygı ilə qaygılanmaz, əlavə vəsaitlərin izafi olaraq xərclənməsi kimi yüklənməz. Bu isə, öz növbəsində, dövlət büdcəsinin daha da artmasına, sosial rifahın daha da yaxşılaşmasına öz töhfələrini çox gözlətməz.

**İNAM**

## "Azərbaycan dördüncü sənaye inqilabına ən yaxşı hazır olan ölkələrdən biridir"



***"Prezident İlham Əliyevin Davos İqtisadi Forumunda keçirdiyi çoxsaylı görüşləri bir daha sübut edir ki, ölkəmiz əməkdaşlıq və tərəfdaşlıq üçün nə qədər əhəmiyyətlidir və geopolitik nöqteyi nəzərdən çox mühümdür. Bu, eyni zamanda ölkə rəhbərimizin dünya siyasətçilərinin, iqtisadçılarının, biznesmenlərin və s. tanınmış şəxslərin qarşısında mövcud olan böyük nüfuzunun göstəricisidir". Bu fikirləri Sherg.az-a açıqlamasında "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev dövlət başçısı İlham Əliyevin Davos İqtisadi Forumundakı fəaliyyətini şərh edərkən deyib.***

Onun sözlərinə görə, bu beynəlxalq tədbir ərəfəsində cənab İlham Əliyevin Forumun rəsmi saytda işıqlandırılan məqaləsi, həmçinin onun bir sıra dövlət adamları, nüfuzlu iqtisadçılar, şirkətlər arasında maraq dairəsində olması da belə deməyə zəmin yaradır ki, Azərbaycanın dinamik inkişafı dünya ölkələrinin diqqət mərkəzindədir:

"Prezident İlham Əliyevin Davosda Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə görüşü xüsusi əhəmiyyət kəsb edir və gələcək inkişaf planlarının realizəsinə, həyata keçirilməsinə daha münbit şərait yaradır. Ümumiyyətlə, Azərbaycanın əldə etdiyi hər bir nailiyyətin arxasında, eyni zamanda, Prezident İlham Əliyevin şəxsi nüfuzu, diplomatik bacarığı dayanır.

Cənab Borge Brende ilə görüşdə aparılan uğurlu fikir mübadiləri və Azərbaycanın regionda iqtisadiyyat, nəqliyyat, infrastruktur sahələrində oynadığı rolunun vacibliyinin vurğulanması növbəti əhəmiyyətli hadisə ilə yadda qaldı və mühüm sənəd imzalandı. Ötən il imzalanmış memorandumun davamı kimi imzalanan niyyət protokolu ölkəmizin regionda və beynəlxalq aləmdəki yerini və rolunu daha da möhkəmləndirəcək, yeni perspektivlər, imkanlar qazandıracaq. İmzalanan sənədə əsasən, Forumun ölkəmizdə afilə edilmiş regional mərkəzinin yaradılması barədə müştərək qərarın verilməsi də deyilənləri köklü şəkildə isbatlayır. Çünki bənzər mərkəzlər məhdud saydadır və imzalanma əsnasında bu amil xüsusilə vurğulandı, bildirildi ki, burada əsas məqsədi dördüncü sənaye inqilabının səbəb olduğu çağırış və imkanların həyata keçirilməsidir. İlham Əliyevin imza törənindən sonra irəli sürdüyü fikirləri də bu cür qənaətə gəlməyə əsas yaradır ki, Azərbaycan Davos Forumu ilə bu mühüm sənədi imzalayan ilk ölkələr sırasındadır. Həqiqətən də bizim əlaqələrimiz də keyfiyyətcə yeni mərhələdədir .

Daha bir diqqətçəkici məqam isə cənab Borge Brendenin irəli sürdüyü fikirləridir. O, prezident İlham Əliyevin qətiyyətini, iradəsini, qarşıya qoyduğu hədəfləri həyata keçirməsini xüsusilə vurğuladı və Azərbaycanın dördüncü sənaye inqilabına ən yaxşı hazır olan ölkələrdən biri olacağını əminliklə bildirdi. Əlbəttə, bütün bunlar çox qısa zaman kəsimində əldə edilən nəhəng uğurların göstəricisi, bu uğurların təməlinin nə qədər möhkəm dayaqlara söykəndiyinin məntiqi nəticəsidir".

## Kolumbiyanın səfiri: "Azərbaycan ilə iqtisadi əməkdaşlığı inkişaf etdirməkdə maraqlıyıq"



Azərbaycan ilə Kolumbiyanın dostluq əlaqələri yüksək səviyyədədir. Ölkəmiz Azərbaycan ilə iqtisadi əməkdaşlığı inkişaf etdirməkdə maraqlıdır. Bu fikirləri AZƏRTAC-a açıqlamasında Kolumbiyanın ölkəmizdəki səfiri Luis Antonio Dimate Kardenas deyib. Bakıda keçirilən ikinci Qəhvə və Çay Festivalında iştirak etməkdən məmnunluğunu bildirən diplomat bildirib ki, səfirlik bu tədbir vasitəsilə Azərbaycanda qəhvə mədəniyyətini təbliğ etmək, azərbaycanlılara Kolumbiya məhsullarını tanıtmaq niyyətindədir. Qeyd edib ki, Kolumbiya, həmçinin Qafqaza qəhvə ixracını artırmaq üçün müvafiq şirkətlərlə əlaqələr qurmaq və nəqliyyat yollarını müəyyənləşdirməkdə maraqlıdır.

"Biz bu festivalda artıq ikinci dəfədir iştirak edirik. Burada iştirakçılar Kolumbiyanın qəhvə yetişdirilən aparıcı bölgələrini tanımaq, müxtəlif növ qəhvələrin sirlərini öyrənmək imkanına malikdirlər", - deyə səfir əlavə edib.

## Azərbaycanda koronavirusa yoluxma riski varmı?

"Çindən Azərbaycana gələnlər mütləq hava limanında koronavirusla bağlı yoxlamadan keçirilməlidirlər". Bunu "Report"a açıqlamasında Azərbaycanın baş infeksionisti Cəlal İsayev deyib. Onun sözlərinə görə, Çinə gedən Azərbaycan vətəndaşları da ehtiyatlı olmalı, özlərini qorumalıdırlar: "Azərbaycanda koronavirusa yoluxma riski var. Çünki Azərbaycanla Çin arasında sıx gediş-gəliş mövcuddur. Çindən ölkəmizə gələnləri mütləq yoxlamaq lazımdır".

Qeyd edək ki, Çinin Vuhan şəhərində ortaya çıxan koronavirusa yoluxanların sayı 830-u ötüb, ölənlərin sayı isə 26-ya çatıb.

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasına start verib*



## YAP-ın namizədi Siyavuş Novruzovun təbliğat-təşviqat kampaniyası kütləviliklə müşahidə olunur

***5 saylı Şahbuz-Babək Seçki Dairəsi üzrə Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş Siyavuş Novruzovun təbliğat-təşviqat kampaniyası uğurla davam edir. Kampaniya çərçivəsində növbəti görüşlər Şahbuz rayonunun Badamlı qəsəbəsində, Şahbuzkənd, Külüs, Keçili, Kiçikoba, Türkeş və Badamlı kəndlərində keçirilib. Eyni zamanda, Siyavuş Novruzov Ermənistanla həmsərhəd olan, 22 ailənin məskunlaşdığı Şada kəndinin sakinləri, eləcə də, kənddə yerləşən N saylı hərbi hissənin əsgərləri ilə görüşüb və hərbi hissədəki şəraitlə tanış olub.***



Deputatlığa namizəd Siyavuş Novruzov görüşlər zamanı qeyd edib ki, ölkəmiz Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçib, bütün sahələrdə möhtəşəm nailiyyətlər əldə edilib: “Yeni zirvələr fəth edən Azərbaycanın hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması xalq-iqtidar birliyini daha da möhkəmləndirib, vətəndaşların Prezident İlham Əliyevin ətrafında sıx birləşməsini təmin edib. Xalqımız Azərbaycanın son 16 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin fonunda tərəqqisini, dayanıqlı və dinamik inkişafın bütün sahələri əhatə etməsini çox yüksək qiymətləndirir. Azərbaycan vətəndaşları ölkəmizin inkişafının, sabitliyin davam etməsini istəyir və iqtidarın həyata keçirdiyi siyasətə mütləq inam ifadə edirlər. Ona görə də, əminliklə söyləmək olar ki, seçicilər parlament seçkilərində Yeni Azərbaycan Partiyasına növbəti dəfə böyük etimad göstərəcəklər və partiyamız bir daha parlaq qələbə qazanacaq”.

Deputatlığa namizəd Siyavuş Novruzov Prezident İlham Əliyevin muxtar respublikanın inkişafına böyük önəm verməsini diqqətə çatdıraraq, bildirib ki, Naxçıvan Muxtar Respublikası, ötən müddət ərzində, tərəqqi yolunda addımlayaraq, çox böyük uğurlar qazanıb. “Ali Məclisin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə görülmüş işlər muxtar respublika iqtisadiyyatının inkişafını, insanların rifahının daha da yaxşılaşmasını, cəmiyyət həyatının bütün sahələrində çox əhəmiyyətli nailiyyətlərin əldə olunmasını şərtləndirib. Şahbuz rayonunda və onun bütün kəndlərində aparılmış genişmiqyaslı abadlıq-quruculuq işləri, yaradılmış yüksək təminat sakinlərin rifahı, firavan və xoşbəxt həyatı üçündür” deyə qeyd edən YAP-ın namizədi zəngin və şərəfli inkişaf yoluna malik olan YAP-ın, ötən müddət ərzində, ümumxalq partiyasına çevrilərək möhtəşəm nailiyyətlər əldə etməsinin təsadüfi xarakter daşımadığını, partiyanın milli maraqlara xidmət edən çoxşaxəli və səmərəli fəaliyyəti ilə Azərbaycan cəmiyyətinin bütün təbəqələrindən olan insanları öz sıralarında birləşdirdiyini diqqətə çatdırıb: “Partiyamız Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında, Prezident İlham Əliyevin Sədrliyi ilə öz fəaliyyətini müvəffəqiyyətlə davam etdirir, qatıldığı bütün seçkilərdə əzmkar qələbələr qazanır. Bu gün Azərbaycanda YAP-a rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil”.

Siyavuş Novruzov seçiciləri fevralın 9-da parlament seçkilərində fəal iştirak etməyə və Yeni Azərbaycan Partiyasının namizədinə səs verməyə çağırıb.

Görüşlərdə çıxış edən seçicilər də ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin əhəmiyyətindən bəhs ediblər, vətəndaşların dövlətin hərtərəfli qayğısı ilə əhatə olunmalarının təqdirəlayiq olduğunu bildiriblər. Vurğulanıb ki, Azərbaycanın hər bir bölgəsi kimi Naxçıvan Muxtar Respublikası da uğurla inkişaf edir, sakinlərin rifahı gündən-günə daha da yaxşılaşır, muxtar respublikanın bütün rayonlarında, o cümlədən, Şahbuz rayonunda əhalinin həyat şəraitinin daha da yaxşılaşmasına xidmət edən ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi böyük məmnunluq hissi ilə qarşılanır. “Bütün bu reallıqların fonunda seçimimiz, birmənalı olaraq Prezidentimizin Sədri olduğu Yeni Azərbaycan Partiyasının namizədləridir” seçicilər öz çıxışlarında bildiriblər.

Qeyd edək ki, görüş zamanı sakinlərin təklifləri dinlənilib və onları maraqlandıran suallar cavablandırılıb.

***Rövşən RƏSULOV***

## Pirallahıda Rauf Əliyevin gənclərlə görüşü keçirilib

***VI çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin təbliğat-təşviqat kampaniyası çərçivəsində 13 saylı Xəzər-Pirallahı Seçki Dairəsindən namizədliyi irəli sürülmüş Əliyev Rauf Asif oğlunun Pirallahı qəsəbəsində gənclərlə görüşü keçirilib.***

Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov, idarə heyətinin üzvləri Əli Kərimov və Elxan Məmmədov, partiya fəalı İsgəndər Vəliyev ölkəmizin və regionun ən güclü siyasi partiyası olan YAP-ın yarandığı gündən iştirak etdiyi bütün seçkilərdə qələbə qazandığını və partiyanın Prezident İlham Əliyevin Sədrliyi ilə dövlətimizin inkişafı və xalqımızın əmin-amanlıq içində yaşaması uğrunda mühüm töhfələr verdiyini vurğulayıblar.

Görüşdə YAP Pirallahı rayon təşkilatının gənclər birliyinin sədri Rüfət Əhmədov çıxış edərək, respublikamızda dövlət-gənclər siyasətinin və Ulu Öndər Heydər Əliyevin bu istiqamətdə əsasını qoyduğu ənənələrin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini qeyd edib.

13 saylı Xəzər-Pirallahı Seçki Dairəsindən namizədliyini geri götürmüş Pirallahı rayon rus icmasının sədri Yelena Aşurova çıxış edərək, seçiciləri Rauf Asif oğlu Əliyevə səs verməyə dəvət edib.



Həmçinin, tədbir iştirakçıları sadəliyi və səmimiliyi ilə Pirallahı sakinlərinin rəğbətini qazanan Rauf Əliyevin ölkənin ictimai-siyasi həyatındakı fəaliyyətini yüksək qiymətləndirdiklərini vurğulayaraq, dəfələrlə III, IV, V çağırış Milli Məclisin iclaslarında Pirallahı sakinlərinin problemlərinin həlli istiqamətində əlindən gələni etməyə çalışdığının şahidi olduqlarını diqqətə çatdırıb, birmənalı olaraq, “Daha güclü Azərbaycan naminə” şüarı ilə gedən Yeni Azərbaycan Partiyasının yenidən irəli sürdüyü namizədə - Rauf Asif oğlu Əliyevə səs verəcəklərini bəyan ediblər.




Çıxışında Rauf Əliyev ona göstərilən etimada görə Yeni Azərbaycan Partiyasına, partiyanın Sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin minnətdarlığını bildirərək, Pirallahı rayonunda aparılan abadlıq-quruculuq işlərində gənclərin xüsusi rolu olduğunu vurğulayıb.

Tədbir iştirakçılarından Tahirə Babayeva və Zöhrab Hüseynov mövcud problemlərin həlli ilə bağlı Rauf Əliyevdən köməklik göstərilməsini xahiş ediblər.

Deputatlığa namizəd Rauf Əliyev dövlətimizin qarşıya qoyduğu vəzifələri xalqın, cəmiyyətin istəyinə uyğun layiqincə yerinə yetirməyə çalışacağını bildirib.

***Rövşən RƏSULOV***

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasına start verib*






## Seçicilərin YAP-ın namizədi Ağalar Vəliyevə dəstəkləri birmənalıdır!

YAP Goranboy rayon təşkilatı fevralın 9-da keçiriləcək parlament seçkiləri çərçivəsində partiyanın namizədi Ağalar Vəliyevin təşviqat kampaniyasını uğurla davam etdirir. Yanvarın 23-də 97 saylı Goranboy-Ağdam-Tərtər Seçki Dairəsinin əhatə etdiyi Safıkürd və Tatarlı kəndlərində Ağalar Vəliyevin seçicilərlə görüşü keçirilib. Tədbiri giriş sözü ilə YAP Goranboy rayon təşkilatının sədri Elçin İsmayılov açaraq, Ulu Öndərimiz Heydər Əliyevin Azərbaycan dövlətçilik tarixində misilsiz xidmətlərini və Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyevin müəllifliyi ilə, son 16 il ərzində, qazanılan və müasir dünya tərəfindən qəbul olunan uğurlarından danışıb, dövlət başçısının Goranboy rayonuna 6 dəfə səfərindən, rayonun inkişafına dair verdiyi fərman və sərəncamları barədə ətraflı məlumat verib.

Elçin İsmayılov bildirib ki, 2015-2019-cu ilə kimi Ağalar Vəliyev 97 saylı Goranboy-Ağdam-Tərtər Seçki Dairəsində millət vəkili kimi fəaliyyət göstərib, bu müddət ərzində, mütəmadi olaraq, seçiciləri ilə səmərəli və işgüzar görüşlər keçirib, xalqın deputatı kimi Ağalar Vəliyev seçicilərin qaldırdıqları problemlərin həlli istiqamətində əməli işlər görüb, seçicilərin qayğısına qalıb.

Təbliğat qrupunun üzvü Nofəl Köçərli isə, öz növbəsində, bildirib ki, ötən müddət ərzində Milli Məclisin üzvü kimi Ağalar Vəliyev seçicilərin etimadını layiqincə doğruldub. Belə ki, Ağalar Vəliyev, nəinki Goranboy rayonunda, eləcə də, münaqişə zonasında yerləşən Ağdam və Tərtər rayonunun seçicilərinin qaldırdıqları problemlərin həlli istiqamətində də əməli işlər görüb, diqqət və qayğısını əsirgəməyib, daima seçicilərlə yüksək səviyyədə işgüzar görüşlər keçirib. Görüşdə iştirak edən Safıkürd kənd ağsaqqalı Bəkir Hüseyinov Firəddin Yusifov, şəhid atası Allahverdi Nəsibov şəhid ailəsinin üzvü Muxtar Nəbiyev, əməkdar müəllim Etibar Rüstəmov, Tatarlı kənd sakini milli qəhrəman anası Gülzar Ocaqverdiyeva, Qarabağ əlili Qabil Rzayev çıxış edərək, ərazidəki həlli vacib olan problemlərdən danışıblar. Onlar Ağalar Vəliyevin yenidən Milli Məclisin üzvü seçilməsi üçün 9 fevralda keçiriləcək parlament seçkilərində seçiciləri YAP-ın namizədinə səs verməyə çağırıblar.

Görüşdə YAP tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə namizəd kimi irəli sürülən Ağalar Vəliyev seçicilər qarşısındakı çıxışında qeyd edib ki, Milli Məclisə seçkilərdə seçiciləri tərəfindən ona etimadın göstəriləcəyi təqdirdə, deputat kimi fəaliyyətini gücləndirəcək və hər zaman seçicilərinin səsinə səs verəcək: "Sizlərin hər birinizi əmin edirəm ki, YAP-ın "Daha güclü Azərbayacan naminə!" Seçki Proqramını rəhbər tutaraq, ölkəmizdə həyata keçirilən uğurlu dövlət siyasətinin və köklü islahatların dəstəklənməsinə xalqımızın və seçicilərimizin iradəsinə və maraqlarına uyğun qanunların qəbul olunmasına qanunvericilik nümayəndəlik və təmsilçilik funksiyalarının layiqincə icra edilməsinə çalışacağam. Eyni zamanda, partiyamızın Seçki Proqramına uyğun olaraq, ərazi bütövlüyümüzün bərpa edilməsi dövlətimizin qüdrətinin yüksəlməsi iqtisadi inkişaf, sosial rifah və beynəlxalq aləmdə ölkəmizin nüfuzunun artması istiqamətində səylərimi əsirgəməyəcəyəm".

Ağalar Vəliyevin seçicilərlə görüşü müzakirələr və diskussiyalarla başa çatıb. Seçicilər bir daha YAP-ın namizədi Ağalar Vəliyevə səs verəcəklərini və onu dəstəkləyəcəklərini vurğulayıblar.

***Rövşən RƏSULOV***

## 19 saylı Nərimanov birinci Seçki Dairəsindən deputatlığa namizəd Hikmət Babaoğlu seçicilərlə növbəti görüşünü keçirib





Parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyasının 19 saylı Nərimanov birinci Seçki Dairəsindən deputatlığa namizədi Hikmət Babaoğlunun Nərimanov rayonunun Şahin Mustafayev və İsmayıl Hidayətzadə küçəsinin kəsişdiyi ərazidə yaşayan seçicilərlə görüşüb. Görüşü giriş sözü ilə açan YAP Nərimanov rayon təşkilatının Seçki Qərargahının sədri Təmraz Tağıyev parlament seçkilərinin ölkəmizin siyasi həyatında mühüm hadisə olduğunu bildirib. YAP-ın bu seçkilərə yüksək səviyyədə hazırlaşdığını deyən T.Tağıyev partiyanın qələbə qazanacağının şübhəsiz olduğunu qeyd edib. O, görüş iştirakçılarına deputatlığa namizəd Hikmət Babaoğlu haqqında geniş məlumat verib.

Seçicilər qarşısında çıxış edən deputatlığa namizəd Hikmət Babaoğlu bildirib ki, Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası bu gün təkcə Azərbaycanın deyil, regionun ən güclü siyasi təşkilatıdır. Onun sözlərinə görə, YAP yarandığı vaxtdan bu günə qədər göstərdiyi fəaliyyət sayəsində ümumxalq partiyası adını qazanmağı bacarıb. "Mən qürur duyuram ki, ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının namizədiyəm" deyə Hikmət Babaoğlu vurğulayıb. YAP-ın fəaliyyətində varislik prinsipinə böyük önəm verdiyini deyən deputatlığa namizəd partiyanın hər zaman xalqın maraqlarından çıxış etdiyini bildirib. O, bu gün partiyamızın Sədri, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın böyük inkişaf yolu keçdiyini diqqətə çatdırıb.

Hikmət Babaoğlu, həmçinin, seçicilərə özünün ictimai-siyasi, elmi fəaliyyəti haqqında da məlumat verib. O, qeyd edib ki, millət vəkili kimi fəaliyyəti ərzində vətəndaşlar tərəfindən ünvanımıza 118 şifahi və 97 yazılı müraciət daxil olub. Qeydə alınan 215 müraciətdən 100 müraciət, tam olaraq həllini tapıb, 60 müraciət qismən təmin edilib, 40 müraciət aidiyyəti qurumlara göndərilib və yerdə qalan müraciətlərlə bağlı lazımi izahatlar verilib. "Seçki bir demokratiya yarışıdır. Mən inanıram ki, sizlər Yeni Azərbaycan Partiyasının namizədinə səs verəcəksiniz. Sizin qaldırdığınız məsələləri kimliyindən asılı olmayaraq, yalnız YAP kimi böyük nüfuza malik partiyanın nümayəndəsi həll edə bilər. Sizi 9 fevral seçkilərində fəal olmağa çağırıram və əgər mənə etimad göstərsəniz, parlamentdə yenə də sizin layiqli təmsilçiniz olacağam". Sonra çıxış edən filologiya üzrə fəlsəfə doktoru Cəlal Allahverdiyev qarşıdan gələn parlament seçkiləri haqqında danışıb, YAP-ın namizədlərinin qələbəsinə inandığını deyib: "İnanırıq ki, Nərimanov seçiciləri bu seçkilərdə də partiyamızın namizədinə səs verəcəklər. Çünki YAP hər zaman xalqın maraqlarından çıxış edir. Eyni zamanda, Hikmət Babaoğlu millət vəkili kimi parlamentdə seçicilərini layiqincə təmsil edib. İnanırıq ki, yenə də belə olacaq".

Deputatlığa namizəd Hikmət Babaoğlunun ziyalı keyfiyyətləri haqqında fikirlərini bildirən C.Allahverdiyev seçiciləri, məhz YAP-ın namizədinə səs verməyə səsləyib. 19 saylı Nərimanov birinci Seçki Dairəsindən deputatlığa namizəd olmuş Pərviz Səmədov da YAP-ın namizədi olaraq Hikmət Babaoğlunun fəaliyyətini yüksək qiymətləndirib, məhz bu səbəbdən də, deputatlığa namizədliyini Hikmət Babaoğlunun xeyrinə geri götürdüyünü söyləyib. O, seçiciləri 9 fevral parlament seçkilərində Hikmət Babaoğluna səs verməyə çağırıb.

Görüşdə çıxış edən seçicilər də millət vəkili Hikmət Babaoğlunun fəaliyyətindən razı qaldıqlarını, qarşıdan gələn seçkilərdə də, məhz ona səs verəcəklərini söyləyiblər. Daha sonra deputatlığa namizəd Hikmət Babaoğlu seçicilərlə söhbət edib, onların arzu və təkliflərini dinləyib.

***RƏFİQƏ KAMALQIZI***

# “DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!”

*Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasına start verib*





## Aqil Sadıq oğlu Məmmədovun seçicilərlə görüşləri davam edir

Fevralın 9-da Azərbaycanda növbəti parlament seçkilərinə namizədliyi irəli sürülən namizədlərin təbliğat-təşviqat kampaniyası yüksək səviyyədə start götürüb. 123 saylı Kəlbəcər Seçki Dairəsi Yeni Azərbaycan Partiyasının millət vəkilliyinə namizədi Aqil Sadıq oğlu Məmmədovun da seçicilərlə silsilə görüşləri keçirilir.









Onun ilk təbliğat kampaniyası Daşkəsən rayonu Quşcu kəndində, yanvarın 22-də Goranboy rayonu Veyisli qəsəbəsi, Yeni qəsəbə, Qaraçinar və Börü kəndlərində, yanvarın 23-də Şəmkir rayonunda peşə məktəbində, yanvarın 24 Gəncə şəhərinin Yeni Qəsəbə seçiciləri ilə görüşləri keçirilib. Keçirilən görüşlərdə çıxış edən namizədin səlahiyyətli nümayəndəsi, rayon təşkilatının aparat rəhbəri Qənaət Əsgərov çıxış edərək bildirib ki, özünün yüksək keyfiyyətləri ilə seçilən, əhali arasında hörmətə və nüfuza malik olan Aqil Məmmədov uzun müddət Kəlbəcər rayon icra hakimiyyəti başçısının birinci müavini, sonra isə icra hakimiyyətinin başçısı kimi yüksək peşəkarlıq və idarəetmə qabiliyyəti nümayiş etdirib: “Daim əhali ilə təmasda olan, onların problemlərinin həllinə çalışan Aqil Məmmədov özünün yüksək mədəniyyəti, qayğıkeşliyi və xeyirxahlığı ilə seçilir. İnanırıq ki, Aqil Məmmədov seçicilərin yüksək etimadı ilə parlamentə üzv seçildikdən sonra da öz missiyasına sadiq qalacaq, seçicilərinin arzu və istəklərini Milli Məclisin tribunasından səsləndirəcək, onların problemlərinin həllində əlindən gələni əsirgəməyəcəkdir. Azərbaycanın daha da güclənməsi üçün “Daha güclü Azərbaycan naminə!” istiqamətində irəliləyən YAP-ın namizədinə səs verəcəklərini bəyan ediblər.

Görüşdə Aşıq Şəmşir Mədəniyyət Ocaqı İctimai Birliyinin sədr müavini Həbib Misirov, şair Zakir Həsənov və digər seçicilər hamını Aqil Məmmədova səs verməyə çağırdılar. Görüşün sonunda YAP-ın parlament seçkilərinə irəli sürdüyü namizədi Aqil Sadıq oğlu Məmmədov çıxış edərək, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin uğurlarından danışıb. O deyib ki, müasir Azərbaycan dövlətinin banisi, Ulu Öndər Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində əldə olunmuş nailiyyətlər sonrakı illərdə ölkə iqtisadiyyatının davamlı və dinamik inkişafı üçün möhkəm zəmin yaradıb: “Eyni zamanda, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən və yeni çalarlarla zənginləşdirilmiş sosial-iqtisadi siyasət nəticəsində qazanılmış uğurlar daha da möhkəmləndirilib, sahibkarlığa dövlət dəstəyi gücləndirilib, əhalinin sosial rifahı, davamlı olaraq, yaxşılaşıb”.

Aqil Məmmədov onu da bildirib ki, daim dövlətçiliyimizə xidmət edən, vətəndaşlarımızın daha da yaxşı yaşamalarına təminat verən qərar və proqramların qəbul olunmasında birbaşa iştirak edən YAP, eyni zamanda, əldə olunan uğurlarla kifayətlənmir, daim yeni hədəflərə doğru irəliləyir: “Heç də, təsadüfi deyil ki, YAP bu seçkilərə “Daha güclü Azərbaycan naminə!” şüarı ilə qatılır.”

Aqil Məmmədov, həmçinin, Milli Məclisə deputat seçiləcəyi təqdirdə, görəcəyi işlər barəsində də danışaraq, vurğulayıb ki, yalnız və yalnız dövlətimizin, xalqımızın və seçicilərin mənafeyi naminə fəaliyyət göstərəcək, partiyamızın siyasi baxışlarına uyğun addımlar atacaq, xalqımızın daha da yaxşı yaşamasına xidmət edən qanunların qəbulunda fəallıq nümayiş etdirəcək. A.Məmmədov seçiciləri fevralın 9-da fəal olmağa və layiqli namizədə səs verməyə çağırıb.

**RƏFİQƏ HÜSEYNOVA**

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasına start verib*





## Malik Həsənovun seçicilərlə görüşləri davam edir



***Dünən 9 fevral parlament seçkiləri ilə bağlı Milli Məclisə keçiriləcək seçkilərin təbliğat-təşviqat kampaniyası çərçivəsində Yeni Azərbaycan Partiyasının 67 saylı Cəlilabad şəhər Seçki Dairəsindən namizədi Malik Həsənovun rayonun Astanlı, Zopun, Kürdlər və Sərhədabad kəndlərinin seçiciləri ilə görüşləri keçirilib.***

Keçirilən görüşlərdə çıxış edən YAP Cəlilabad rayon təşkilatının sədri Mirsüleyman Mirxaslı Milli Məclisə seçkilərlə bağlı məlumat verərək, bildirib ki, seçkilərə hazırlıq Cəlilabad rayonunda yüksək səviyyədə həyata keçirilir, seçki qərargahı tərəfindən təbliğat-təşviqat kampaniyası nəzərdə tutulmuş plan üzrə mütəşəkkilliklə aparılır, Yeni Azərbaycan Partiyasının Seçki Proqramı əhaliyə müfəssəl şəkildə çatdırılır və partiyanın deputatlığa namizədlərinin platformaları seçicilərə ətraflı izah olunur. M.Mirxaslı, həmçinin, partiyanın 67 saylı Cəlilabad şəhər Seçki Dairəsindən namizədliyi irəli sürülən Malik Əvəz oğlu Həsənovla bağlı seçicilərə ətraflı məlumat verərək, onun ötən illərdəki deputat fəaliyyətinin əsas yekunlarını görüş iştirakçılarına çatdırıb. Həmçinin, seçiciləri YAP-ın namizədi Malik Həsənova səs verməyə çağırıbdır.

Seçicilər də çıxış edərək, seçkilərdə fəal iştirak edəcəklərini və birmənalı olaraq, YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.

Deputatlığa namizəd Malik Həsənov seçicilər qarşısındakı çıxışında bildirib ki, Milli Məclisə keçirilən seçkilərdə mənim namizədliyimin Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülməsi qürur doğurur: "Bu etimad mənim üçün olduqca fərəhli və ikiqat məsuliyyətli bir sınaqdır. Əmin ola bilərsiniz ki, məni yenidən Milli Məclisin deputatı seçsəniz, hər birinizin problemini öz şəxsi vətəndaş problemim kimi qəbul edəcək, hər bir seçiciyə fərdi yanaşacaq, imkan daxilində həmin problemlərin həllinə yardımçı olacağam".

Qarşıdakı illərdə fəaliyyətini YAP-ın Seçki Proqramına uyğun olaraq, quracağını bildirən Malik Həsənov seçicilərini əmin etdi ki, gələcək dövr üçün nəzərdə tutulmuş iqtisadi inkişaf proqramlarının reallaşdırılması nəticəsində ölkəmizin qüdrəti daha da artacaq, iqtisadi fəaliyyətə və sahibkarlığa hərtərəfli dəstək veriləcək, yenə də xalqın mənafeyi və milli maraqları əsas tutulacaqdır.

Sonda seçiciləri 9 fevralda keçiriləcək parlament seçkilərində böyük fəallıq nümayiş etdirməyə və partiyanın namizədlərinə səs verməyə çağırdı.

***RƏFİQƏ HÜSEYNOVA***

## Suraxanılılar Sevinc Fətəliyevanı dəstəkləyəcəklər



30 saylı Suraxanı I Seçki Dairəsindən Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədliyi irəli sürülmüş Fətəliyeva Sevinc Həbib qızının Günəşli seçiciləri ilə təbliğat-təşviqat kampaniyası çərçivəsində görüşləri keçirilib. Qeyd edək ki, namizədlə görüşdə 125 nəfər Günəşli qəsəbəsi "Q" yaşayış sahəsi 1,2,3,7, 8, 9 saylı binaların sakinləri olan seçicilər iştirak etmişdir.

Görüşü giriş sözü ilə deputatlığa namizəd Sevinc Fətəliyeva açaraq, deputat olduğu dönəmdə göstərdiyi fəaliyyətindən, aparılan dövlət siyasətindən, islahatlardan və qarşıdakı illərdə Azərbaycanın daha da inkişafı üçün atılmalı olan addımlardan danışaraq, öz seçki platformasını sərgiləyib. Daha sonra görüş qarşılıqlı fikir mübadiləsi şəraitində keçirilib, sakinlərin fikirləri, təklif və problemləri dinlənilərək, qeydə alınıb. Sevinc Fətəliyeva sakinləri seçkilərdə aktiv iştirak etməyə və layiqli namizədə səs verməyə səsləyib.

Görüşdə çıxış edən qəsəbə sakinlərindən Leyli Quliyeva, Elşən Məmmədov, Məmmədli Güll, Nəriman Bayramov, Maşallah Məftun, Xanməmmədov Şövkət parlament seçkilərində YAP-ın namizədinə səs verəcəklərini bildirərək, namizədə uğurlar arzulayıblar.

Görüşdən sonra Sevinc Fətəliyeva Hövsan qəsəbəsində yerləşən Seçki Qərargahında seçiciləri qəbul edib.

***ZÜMRÜD BAYRAMOVA***



# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasına start verib*

## Məşhur Məmmədov rayonun ağsaqqalları və gəncləri ilə görüş keçirib

***Dünən Yeni Azərbaycan Partiyasının 70 saylı Masallı şəhər Seçki Dairəsi üzrə deputatlığa namizədliyi irəli sürülmüş Məşhur Şahbaz oğlu Məmmədov, ilk növbədə, rayonun ağsaqqalları ilə görüş keçirib.***



Görüşü giriş sözü ilə açan YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev son on altı ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə çoxsaylı uğurların əldə olunduğunu bildirib: "Çox sevindirici haldır ki, bu gözəl işlərin müsbət təsiri Masallı rayonunun dəyişən və gözəlləşən simasında da özünü göstərir".



Parlament seçkilərinin əhəmiyyətindən söz açan S.Əliyev vurğulayıb ki, qanunverici orqan, məhz xalqın səsverməsi ilə formalaşır. O, vurğulayıb ki, 9 fevral 2020-ci il tarixində keçiriləcək parlament seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyası, ilk gündən gözlənildiyi kimi, çox uğurlu başlayıb. S.Əliyev, həmçinin, YAP tərəfindən 70 saylı Masallı şəhər Seçki Dairəsindən deputatlığa namizədliyi irəli sürülmüş Məşhur Şahbaz oğlu Məmmədov haqqında geniş məlumat verib və namizədə səs verməyə çağırıb.

Seçicilərlə görüşdə çıxış edən YAP-ın 70 saylı Masallı şəhər Seçki Dairəsindən irəli sürülmüş deputatlığa namizəd Məşhur Şahbaz oğlu Məmmədov həyat və fəaliyyəti barədə geniş məlumat verib. Daha sonra Məşhur Məmmədov çıxışında Prezident İlham Əliyevin Sədri olduğu YAP-ın namizədi olmağı ilə qürur hissi duyduğunu və eyni zamanda, böyük məsuliyyət daşıdığını bildirib: "Ölkəmizin inkişafında misilsiz xidmətləri olan YAP keçirilən bütün seçkilərdə qələbə qazanıb. Xalq-iqtidar birliyinin, həmrəyliyinin olması bu qələbələrin qazanılmasına əsas verir və bu etibarın və inamın qazanılması da Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin yorulmaz və məqsədyönlü siyasəti nəticəsində mümkün olub. İnanıram ki, seçicilərimiz YAP-ın irəli sürdüyü "Daha güclü Azərbaycan naminə" olan platformasını dəstəkləyəcək və Azərbaycanımızın gələcək inkişafında İlham Əliyevin yürütdüyü siyasətə töhfələrini verəcəklər."

Çıxış edən seçicilər, kənd ağsaqqalları, ziyalıları, birmənalı olaraq, bildiriblər ki, ölkə Prezidenti İlham Əliyevin yürütdüyü daxili və xarici siyasəti bəyənir və 9 fevralda seçki məntəqələrinə gələrək, Yeni Azərbaycan Partiyasının namizədi Məşhur Şahbaz oğlu Məmmədova səs verəcəklər.

Tədbirdən sonra kənd ağsaqqalları ilə fərdi qəbul keçirilib. Onları narahat edən məsələlər müzakirə edilib.

Günün ikinci yarısı Məşhur Şahbaz oğlu Masallı rayonun gəncləri ilə görüş keçirib. Görüşü giriş sözü ilə açan YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev qarşıdan gələn parlament seçkiləri haqqında danışıb, seçkilərin ölkəmizin ictimai-siyasi həyatında mühüm bir hadisə olduğunu qeyd edib.

Görüşdə çıxış edən deputatlığa namizəd Məşhur Məmmədov deyib ki, demokratik siyasi sistemə malik olan Azərbaycanda seçkilər şəffaf və beynəlxalq standartlara uyğun keçirilir. Deputatlığa namizəd əlavə edib ki, Azərbaycanın daxili və xarici siyasəti müstəqilliyi ilə seçilir: "Bugünkü müstəqilliyimizin qorunub- inkişaf etdirilməsi məsələsində də gənclərin üzərinə böyük məsuliyyət düşür. Prezident İlham Əliyev də çıxışlarında gənclərə inandığını dəfələrlə vurğulayıb".

Məşhur Məmmədov YAP-ın hər zaman gəncliyin inkişafına dəstək verdiyini deyərək gənc seçiciləri parlament seçkilərində fəal iştirak etməyə çağırıb.

Görüşdə çıxış edən gənclər 9 fevral seçkilərində YAP-ın namizədinə səs verəcəklərini bildiriblər.

**RƏFİQƏ KAMALQIZI**

## Mahir Abbaszadənin laçınlı seçicilərlə növbəti görüşü keçirilib



Dünən Yeni Azərbaycan Partiyası tərəfindən deputatlığa namizədliyi 121 saylı Laçın Seçki Dairəsindən irəli sürülmüş Mahir Tapdıq oğlu Abbaszadə Xəzər rayonunda müvəqqəti məskunlaşmış Laçından olan məcburi köçkünlərlə görüş keçirib.

Mərdəkan qəsəbəsində baş tutan görüşdə Mahir Abbaszadə ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi islahatların uğurlu nəticələrindən danışıb, Azərbaycanın beynəlxalq arenada etibarlı tərəfdaş kimi tanındığını və mövqelərinin gücləndiyini vurğulayıb. O, beynəlxalq təşkilatların və reytinq agentliklərinin hesabatlarında ölkəmizin mövqeyinin möhkəmləndiyini göstərən rəqəmlər açıqlayıb.



Mahir Abbaszadə ölkədə həyata keçirilən islahatların məcburi köçkünlərin həyatında təsirsiz ötüşmədiyini, onların sosial rifahının və mənzil-məişət şəraitinin durmadan yaxşılaşdırıldığını qeyd edib. O, məcburi köçkünlərin qayğılarının daim Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət mərkəzində olduğunu vurğulayıb.




Mahir Abbaszadə, həmçinin, əvvəlki deputatlıq fəaliyyəti ilə bağlı hesabatla çıxış edib və Milli Məclisin qanunvericilik fəaliyyətində fəal iştirak etdiyini diqqətə çatdırıb. O, seçicilərin müraciətlərinə xüsusi önəm verdiyini və onların həlli üçün deputat səlahiyyətləri çərçivəsində lazımi tədbirlər gördüyünü bildirib. Onun səlahiyyətinə aid olmayan müraciətləri dəmüvafiq qurumlara yönəltməklə həllinə çalışdığını deyib.

Daha sonra Laçın rayon sakinləri çıxış ediblər. Onlar Mahir Abbaszadənin deputatlıq fəaliyyətini yüksək qiymətləndirərək, fevralın 9-da keçiriləcək seçkilərdə ona səs verəcəklərini bildiriblər.

**RƏFİQƏ KAMALQIZI**

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasına start verib*

## QUSAR





51 saylı Qusar Seçki Dairəsi üzrə Yeni Azərbaycan Partiyasının namizədi Azər Badamovun növbəti görüşləri rayonun Yuxarı Qələnxur, Zuxul, Yuxarı Tahircal və Nəcəfkənd kənd seçiciləri ilə olub.

Görüşləri YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov açaraq, seçicilərə Yeni Azərbaycan Partiyasının ölkəmizin ictimai- siyasi həyatındakı uğurları barədə məlumat verib. O, həmçinin, Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Azər Badamovun fəaliyyətini seçicilərin diqqətinə çatdırıb.

Görüşdə deputatlığa namizəd Azər Badamov çıxış edərək deputat olduğu dönəmdə fəaliyyətindən və aparılan dövlət siyasətindən söz açıb.

Tədbirdə iştirak edən YAP Qusar rayon təşkilatının şura üzvü Vidadi Mamamliyev Azər Badamovun parlamentdəki fəaliyyəti barədə görüş iştirakçılarını məlumatlandırıb. O, seçiciləri Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyini irəli sürülmüş Azər Badamova səs verməyə çağırıb. Görüşdə çıxış edən kənd sakinləri İlyas Orduxanov, Meyvəddin Babayev, Rafik Qonaqov, Milhac Milhacov, Nəcəf Şalbuzov, Yarəhməd Yarəhmədov və Azik Buxsayev Yeni Azərbaycan Partiyasının siyasi xəttini dəstəkləyərək, deputatlığa namizəd Azər Badamova yekdilliklə səs verəcəklərini bildiriblər.

## Sabunçu

Dünən 27 saylı Sabunçu ikinci Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının deputatlığa namizədi Əliabbas Salahzadənin təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Sabunçu rayon təşkilatının qərargahında seçiciləri ilə növbəti görüşü keçirilib.

Görüşdə YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva çıxış edərək, hakim partiyanın seçkilərə hazırlığı və rayon təşkilatının bu məqsədlə gördüyü işlər barəsində məlumat verib. Natiq bildirib ki, hazırda təşviqat kampaniyası uğurla davam etdirilir, partiyanın namizədləri yerlərdə seçicilərlə görüşürlər: "YAP-ın bu seçkilərdə də irəli sürdüyü namizədlər Azərbaycan dövlətçiliyinin inkişafında, partiyamızın möhkəmlənməsində və qüdrətlənməsində, xalqımızın sosial-rifah halının yaxşılaşdırılmasında müstəsna xidmətləri olan, cəmiyyətimiz tərəfindən yüksək hörmət və ehtiramla qarşılanan, nüfuzlu insanlardır. Ona görə də YAP bu şəxslərə böyük etimad nümayiş etdirərək, onların namizədliyini irəli sürüb".

Deputatlığa namizəd Əliabbas Salahzadə görüşdə öz seçki platforması barədə seçicilərə geniş məlumat verib. Ə.Salahzadə deputat seçiləcəyi təqdirdə, verdiyi bütün





vədlərin həyata keçirilməsinə çalışacağını bildirib. O, seçkilərdə qalib gələcəyi təqdirdə, rayonun seçicilərinin etimadını doğrultmağa çalışacağını da söyləyib.

Görüşdə çıxış edən YAP Sabunçu rayon təşkilatının sədr müavini Bəxtiyar Qasımov seçiciləri partiyamızın gənc və perspektivli namizədi Əliabbas Salahzadəni dəstəklədiklərini və Azərbaycanın daha da güclü dövlətə çevrilməsi üçün yeni birlik nümayiş etdirməyə səs verəcəklərinə əmin olduğunu deyib.

Görüşdə çıxış edən seçicilər də bu seçkilərdə də YAP-ın qərarına dəstək verəcəklərini və Əliabbas Salahzadəyə səs verəcəklərini bildiriblər.

## Xaçmaz





Dünən YAP Mərkəzi Seçki Qərargahı Xaçmaz rayon şöbəsi 55 saylı Xaçmaz Seçki Dairəsindən namizədliyi YAP tərəfindən irəli sürülmüş Eldəniz Adil oğlu Səlimovun rayonun seçiciləri ilə görüşü keçirilib.

Görüşdə çıxış edən seçicilər parlament seçkilərində də bir yumruq kimi birləşəcəklərini söyləyərək, Yeni Azərbaycan Partiyasının namizədinə dəstək olacaqlarını bildiriblər.

Milli Məclis üzvlüyünə Yeni Azərbaycan Partiyasının namizədi Eldəniz Adil oğlu Səlimov seçki platforması və yenidən millət vəkili seçiləcəyi təqdirdə, görəcəyi işlər barədə dolğun, ətraflı məlumat verib və seçicilərinin etimadını qazanmağa əzmlə çalışacağına söz verib.

YAP-ın namizədi seçki ərəfəsində olduqlarını və seçicilərin öz seçimlərində fəal olacaqlarına, düzgün mövqe nümayiş etdirəcəklərinə inandığını da söyləyib: "Sizləri layiqli və onların problemlərinə yardımçı ola biləcək namizədlərə səs verməyə çağırıram. Azərbaycanın bugünkü inkişafı, onun regionun qüdrətli dövlət olaraq, adının hallanması və dünyada aparıcı imicinin qorunub-saxlanması naminə xalqın layiqli övladlarının Milli Məclisə seçilmələri üçün dəstəkçi olmağa səsləyir, hər birinizi seçki günü ən real namizədlərə səs verməyə çağırıram".

## ŞABRAN





9 fevral parlament seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyası, Azərbaycanın bütün bölgələrində olduğu kimi, Şabranda da uğurla davam edir.Yeni Azərbaycan Partiyasının seçki siyahısı ilə 54 saylı Şabran-Siyəzən Seçki Dairəsindən namizədliyi irəli sürülən Sadiq Haqverdi oğlu Qurbanov rayonun Qorğan, İzmara, Düz-Bilici, Çinarlar, Zağlı və Xəlifələr kəndlərində sakinlərlə görüş keçirib.

Görüşdə YAP Şabran rayon tşkilatının sədri Mehdi Balabəyov çıxış edərək, seçicilərə deputatlığa namizəd Sadiq Qurbanovun fəaliyyəti barədə ətraflı məlumat verib. Rayon təşkilatının sədri seçiciləri YAP tərəfindən namizədliyi irəli sürülən Sadiq Qurbanova səs verməyə çağırıb.

Görüşdə çıxış edən Milli Məclis deputatlığına namizəd Sadiq Qurbanov seçkidə namizədi olduğu partiyanın amalının "Daha güclü Azərbaycan naminə!" şüarı ilə Yeni Azərbaycan Partiyasının növbəti dəfə seçkilərdə böyük və inamlı qələbə qazanacağına əmin olduğunu bildirib. S.Qurbanov millət vəkili seçiləcəyi təqdirdə, görəcəyi işlərdən danışıb, partiyanın seçki platforması barədə dolğun və ətraflı məlumat verib. Milli Məclis üzvlüyünə namizəd S.Qurbanov millət vəkili seçiləcəyi təqdirdə, seçicilərin etimadını layiqincə doğrultmağa çalışacağını bildirib və seçiciləri YAP-ın namizədlərinə səs verməyə çağırıb.

*Ardı Səh. 14*

# "DAHA GÜCLÜ AZƏRBAYCAN NAMİNƏ!"

*Bu şüarla Yeni Azərbaycan Partiyası Milli Məclisə seçkilərlə əlaqədar təbliğat - təşviqat kampaniyasına start verib*

Əvvəli-Səh-13

**AĞSTAFA**





Parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində 108 saylı Ağstafa Seçki Dairəsindən Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Nizami Qulu oğlu Cəfərovun Ağstafa rayonunun Poylu, Poylu qəsəbə, Kolxəlfəli və Pirili kəndlərində seçicilər ilə görüşü keçirilib.

Görüşlərdə çıxış edən N.Cəfərov parlament seçkilərində Milli Məclisin deputatı seçilərsə, görəcəyi işlərdən danışıb və rayon üçün inkişaf proqramının həyata keçirilməsi ilə bağlı daim çalışacağını bildirib. Millət vəkili olmağın şərəfli olduğunu qeyd edən N.Cəfərov seçicilərin etimadını qazanacağı təqdirdə, insanların qayğıları ilə yaşayıb, onların fikirlərini və təkliflərini parlament tribunasından səsləndirəcəyini vurğulayıb: "Bu səbəbdən də, çalışacam ki, seçki prosesində çox fəal olum, sizinlə davamlı görüşüm, fikirlərinizi öyrənim, problemlərinizin sizinlə birlikdə, sizin iştirakınızla həll edilməsinə səy göstərim".

O, Yeni Azərbaycan Partiyasının Seçki Platforması və öz fəaliyyəti barəsində məlumat verərək, qeyd edib ki, partiyamızın Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində, dövlətimiz yeni inkişaf mərhələsinə qədəm qoyub: "Aparılan uğurlu islahatlar nəticəsində, dövlətimiz gündən-günə inkişaf edir, iqtisadiyyatımız güclənir, insanların rifah halı yaxşılaşır. Təbii ki, bütün bunlara görə Prezidentimiz İlham Əliyevə təşəkkür edirik. Şübhə yoxdur ki, bu inkişaf qarşıdakı illərdə daha da artacaq".

N.Cəfərov seçiciləri 9 fevral seçkilərində fəal olmağa və YAP-ın namizədlərinə səs verməyə çağırıb.

***RƏFİQƏ HÜSEYNOVA,***
***Nəzakət ƏLƏDDİNQIZI***

# Ağdaşlılar Cavid Osmanova səs verəcəklər





Təbliğat-təşviqat kampaniyası çərçivəsində 90 saylı Ağdaş Seçki Dairəsindən Yeni Azərbaycan Partiyasının namizədi Cavid Osmanovun rayon seçiciləri ilə görüşləri davam edir. Növbəti görüşlər rayonun Gürcüva, Qaradağlı və Mürsəl kəndlərində keçirilib.

Görüşləri açan Cavid Osmanov seçicilərinin onu səmimi, könül açıqlığı ilə qarşılamaları və göstərdikləri yekdil dəstəyə görə minnətdarlığını çatdırdı. Ona göstərdikləri dəstəyin cavabsız qalmayacağını, hər zaman olduğu kimi, yenə də onların yanında olacağını qeyd edən C.Osmanov bildirib ki, ağdaşlılar vətənsevər, dövlətə, Ulu Öndər Heydər Əliyevin amallarına sadiq insanlardır və bundan sonra da belə olacaqdır. Prezident İlham Əliyevin ölkədə həyata keçirdiyi dərin, sistemli və ardıcıl islahatlar kursu, onun əsas istiqamətləri haqqında ətraflı məlumat verən C.Osmanov qeyd etdi ki, bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun sosial rifahı dayanır. Elə bu səbəbdən də xalqımız, birmənalı olaraq, Prezidentimizin həm daxili, həm də xarici siyasətini hər zaman müdafiə edir.



Təbliğat qrupunun üzvləri Tənzilə Şıxıyeva, Sevgili İbrahimova və İsmayıl Xuduyev çıxış edərək bildiriblər ki, C.Osmanovun növbəti dəfə 90 saylı Ağdaş Seçki Dairəsindən deputatlığa namizəd olması partiyamızın ona olan etimadının nümunəsidir. Görüş iştirakçılarına Cavid Osmanovun tərcümeyihalı, fəaliyyəti, ötən 4 il ərzində millət vəkili kimi gördüyü işlər haqqında ətraflı məlumat verilib. Seçiciləri inkişafa, yeniliyə, ictimai-siyasi sabitliyə - "Daha güclü Azərbaycan namine!" Yeni Azərbaycan Partiyasına və onun namizədi Cavid Osmanova səs verməyə çağırıblar.

Görüşdə çıxış edən seçicilərdən Gürcüva kənd sakinləri Mirzə Hacıyev, Firidun Mirzəliyev, Məhəmməd Hüseynov, Qaradağlı və Cücük kənd sakinləri Elxan Abdullayev, Əhmədiyar İsgəndərov, Həcər Rəsulova, Akif Musayev və Mürsəl kənd sakinləri Leonora Məhərrəmova, Toğrul Abdullayev qeyd ediblər ki, onlar YAP-ın Sədri, ölkə Prezidenti İlham Əliyevin yürütdüyü siyasəti tam dəstəkləyir və Ağdaşda keçiriləcək Milli Məclisə seçkilərdə namizədliyi YAP tərəfindən yenidən irəli sürülən Cavid Osmanova səs verəcəklər.

***Zümrüd Bayramova***

# Əli Kərimlinin "döyülən" - "söyülən" cinayətkarları, yoxsa..?

*AXCP sədrinin əlaltısı Əlizamin Salahovun ətrafında yaradılan süni səs-küyün arxasında daha hansı maraqlar dayanır?*



***Sirr deyil ki, "quyruğu qapı arasında" qalan kimi, AXCP sədri Əli Kərimlinin ilk işi özünün və yan-yörəsinin ətrafında süni səs-küy yaratmaq cəhdləri olur ki, bu cəhdlərin də arxasında, əlbəttə ki, onun öz şəxsi "maraqları" dayanır. Müxtəlif xarici təşkilatlardan nə olursa-olsun, ya da hansı yolla olursa-olsun, nə isə qoparmaq həvəsi ilə yaşayan və siyasəti biznesə çevirən Ə.Kərimli üçün onun tərəfdarının hansı yolun adamı olması problem deyil. Məsələ də ondadır ki, bu gün sosial şəbəkələrdə ictimai asayişi pozan bir fərdin - Ə.Salayevin guya ki, həbs olunduqdan sonra "təzyiqlərə" məruz qalması ətrafında şou yaradan AXCP sədri guya bilmir ki, həmin cəbhəçi aşırı sərxoş vəziyyətdə vətəndaşlara sataşıb, üstəlik, polisin qanuna tabe olma çağırışlarına tabe olmayaraq, vəziyyəti daha da gərginləşdirib. Nəticədə, o, məhkəmənin qərarı ilə 30 sutkalıq həbs olunub. Məhz bu olaydan dərhal siyasi sirk tamaşası düzəltməyə cəhd edən Ə.Kərimli və onun sosial şəbəkədəki trolları özlərindən ağlasığmaz "iddialar" yaymaqla, ictimai rəyi çaşdırmağa çalışıblar.***

### Bəs rəsmi məlumatda hansı faktlar var?

Xatırladaq ki, cəbhəçinin həbsi ilə bağlı DİN-in mətbuat xidmətinin rəisi, polis polkovniki Ehsan Zahidov mətbuata açıqlamasında qeyd edib ki, sosial şəbəkələrdə bu barədə yayılan məlumatlar yalandır: "Bir qrup adını çəkmək istəmədiyim şəxslər var ki, onlar cinayət törədən, qayda-qanunu pozan vətəndaşı müdafiə etməyi özlərinə peşə seçiblər. Bu gün də həmin şəxslər paytaxtın Səbail rayonu ərazisində sərxoş vəziyyətdə ictimai asayişi pozaraq, polisin qanuni tələblərinə tabe olmadığı üçün məhkəmənin hökmü ilə inzibati qaydada həbs olunan Ə.Salayevin ətrafında şou yaradırlar. Qəti şəkildə bildirirəm ki, Ə.Salayevin saxlanma şəraiti, həmçinin, ona qarşı təzyiqlərin olması və işgəncəyə məruz qalması barədə səsləndirilən iddialar əsassızdır. İnzibati qaydada həbs olunan Ə.Salayev vəkili Cavad Cavadlı ilə görüşüb. Vəkili onun saxlanma şəraiti və səhhəti ilə maraqlanıb. Hətta bu gün Əlizamin Salayevin oğluna zəng edilərək, atası ilə görüşməsi təklif olunub. Oğlu isə işi olduğu üçün sabah görüşə biləcəyini deyib. Bir daha qeyd edirəm ki, sosial şəbəkələrdə yayılan məlumatların heç bir əsası yoxdur və yalandır".

Göründüyü kimi, polis, sadəcə, öz işini görüb və ictimai asayişin mühafizəsini həyata keçirib, aşırı sərxoş olan bir şəxsin xuliqanlıq hərəkətlərinin qarşısını qanunamüvafiq şəkildə alıb. Bütün bunlardan sonra Ə.Kərimlinin sosial şəbəkə klounlarının haray-şivən salmaq səyləri isə, belə bir sualı verməyə zəmin yaradır: Ə.Salayevin bu davranışları doğruymuş, hətta o, ictimai asayişi pozmaqla, vətəndaşların gediş-gəlişlərinə mane olan özünübilməz hərəkətləri ilə düz hərəkət edib?

### Xalq hələ də AXC-Müsavat cütlüyünün hakimiyyəti zamanı polis özbaşınalıqlarını, silahlı reketçilik əməllərini, vətəndaşlara, müxtəlif dükan-bazarlara silahlı basqınları unutmayıb

Yaxud digər bir məntiq də ortaya çıxır. Əgər bu gün Ə.Kərimli belə şəxslərin hərəkətlərinə cavab olaraq, həbs edilmələrini siyasiləşdirməyə cəhdlər göstərirsə, həmin cəhdləri sırasında ona "təzyiqlərin" göstərildiyini iddia edirsə, demək, onun özünün düşüncəsində belə bir yanaşma mövcuddur. Daha dəqiq desək, əgər Allah eləməsin, AXCP sədri hakimiyyətdə-filan olsaydı, güc strukturları onun belə düşüncə tərzi ilə fəaliyyət göstərərdi. Çünki belə sərsəm iddialara, yanaşmalara və dar düşüncələrə yalnız AXCP sədri malik ola bilər!

Ancaq xatırladırıq ki, xalq hələ də AXC-Müsavat cütlüyünün hakimiyyəti zamanı polis özbaşınalıqlarını, silahlı reketçilik əməllərini, vətəndaşlara, müxtəlif dükan-bazarlara silahlı basqınları unutmayıb. Bu cinayətlər, məhz Ə.Kərimlinin də dövlət müşaviri işlədiyi zamanlarda baş verib. İndi isə, həmin cinayətlərin və cinayətkarların başında oturmuş birinin - Ə.Kərimlinin düşüncə tərzinin, hələ də o zamanlarda qalması, şəxsən məndə heç bir təəccüb doğurmur.

İnkişafdan, tərəqqidən və demokratik dəyərlərdən kənarda qalan AXCP sədri yaxşı olardı ki, ətrafındakı cinayətkarların "döyülməsi" və "söyülməsi" kimi sərsəm fikirlərini ictimai rəyə zorla sırımağa çalışmaqdansa, getsin partiyası daxilində tətbiq etdiyi anti-demokratik mühitə, avtoritar idarəçiliyə, iki onillikdən artıqdır ki, oturduğu sədrlik kürsüsünü kimsəyə təhvil verməkistəməməsi maraqlarına yenidən nəzər salsın. Onsuz da, belə hay-küylər, xüsusilə, xuliqanlıq edən, iki dəfə həbsdə olan birinin "müdafiəsinə" qalxan hay-küyçülərə kimsə dəstək göstərməməklə yanaşı, heç inanmayacaq da. Necə deyərlər, "it hürər, karvan keçər..."

*Rövşən RƏSULOV*



## Ermənistanın Konstitusiya Məhkəməsinin sədri siyasi təqiblərə məruz qalır

*Hrayr Tovmasyan: "İstintaqçılara müraciət etmişəm ki, onların fəaliyyətləri çəkilişlə qeydə alınsın"*

***Ermənistanın Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyanın evində axtarışın aparılması ilə bağlı verilən məhkəmə qərarı ölkədə, ictimai-siyasi rəydə və s. cinahlarda kəskin hiddət doğurub. Belə ki, bu cür qərarın verilməsinin özü heç bir məntiqə sığmır və siyasi təqib kimi qiymətləndirilir.***

### Ruben Melikyan: "Baş verənlər "yeni Ermənistanın" repressiya məntiqinə yazılır"

"Hrayr Tovmasyana qarşı irəli sürülən ittiham öz xarakterinə görə elədir ki, onu hətta təsəvvürə gətirmək mümkün deyil. Məhkəmə hansı hüquqi çərçivədə axtarışın aparılmasına icazə verib?" Hakimiyyətin Konstitusiya Məhkəməsinin sədrinin evində axtarışın aparılması ilə verilən qərarını "Ədalət yolu" ictimai təşkilatının həmtəsisçisi Ruben Melikyan "news.am"a açıqlamasında bildirib. Onun sözlərinə görə, Tovmasyanın vəkili Konstitusiya Məhkəməsinin rəhbərinə qarşı başladılan işləri qanunsuzluq və repressiya adlandırıb.

"Özü də, ona qarşı ittihamın irəli sürülməsinin üzərindən, təxminən, 25 gün keçdikdən sonra" deyə xatırladan Melikyan bildirib ki, bu, eyni zamanda, cinayət-prosessual, konstitusiya-hüquq və taktiki-istintaq məntiqinə uyğun gəlmir: "Ancaq bütün bunların yerinə, baş verənlər "yeni Ermənistan", bilavasitə repressiya məntiqinə yazılır. Mən çox istərdim ki, axtarışa icazə verilən məhkəmə aktını görüm".

### Konstitusiya Məhkəməsinin sədri: "Bu gün baş verənlər bugünkü günlə başa çatmayacaq"

"Mən iki-üç dəfə ifadə verməyə dəvət olunmuşam, bu gün mənim mənzilimdə axtarış olub və hər dəfə mən istintaqçılara müraciət etmişəm ki, onların fəaliyyətləri çəkilişlə qeydə alınsın, çünki bu gün baş verənlər bugünkü günlə başa çatmayacaq". Bu sözləri isə Ermənistanın Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyan jurnalistlərə açıqlamasında bildirib və istintaqçıların nəyə görə onun bu müraciətindən imtina etdiklərinə təəccübləndiyini də bildirib.

### Vəkil: "Hətta mənim baş verənləri izah etməyə sözüm belə yoxdur"

Tovmasyanın vəkili Amram Makinyan isə, qeyd edib ki, istintaq qrupunun rəhbəri məhkəmənin axtarış aparmaqla bağlı qərarını təqdim etməkdən boyun qaçırıb.

"Bu, bənzərsiz praktikadır ki, ittiham olunan şəxsə, ya da vəkilinə məhkəmənin qərarı ilə tanış olmaq imkanı verilmir. Hətta mənim baş verənləri izah etməyə sözüm belə yoxdur" deyə Tovmasyanın vəkili hiddətlə bildirib.

Xatırladaq ki, Ermənistanın Konstitusiya Məhkəməsinin sədrinə qarşı, onun 2010-2014-cü illərdə ədliyyə naziri vəzifəsində işləyərkən, vəzifəsindən sui-istifadə etməsi haqqında ittiham irəli sürülüb. Onun ölkəni tərk etməməsi haqqında iltizamı alınıb və Tovmasyanın özü bunu siyasi proses və təqib kimi qiymətləndirir. Ermənistan hakimiyyəti isə onun istefasına nail olmağa çalışırlar. Hətta belə bir qanun da qəbul olunub ki, əgər 31 yanvar 2020-ci ilə qədər məhkəmə üzvləri öz xoşları ilə vəzifələrindən gedəcəklərsə, onlara mövcud maaşları müqabilində pensiya, həmçinin, əlavə ödənişlər də veriləcək.

*RÖVŞƏN*

# Elşad Hacıyev: Sabunçu rayonundakı məktəblərin birində uşaq oğurluğu ilə bağlı məlumatlar əsassızdır

***Sabunçu rayonundakı məktəblərin birində uşaq oğurluğu ilə bağlı sosial şəbəkələrdə yayılan məlumatlar əsassızdır və təsdiqini tapmayıb.***

Bakı Şəhər Baş Polis İdarəsinin mətbuat xidmətinin rəisi, polis mayoru Elşad Hacıyev AZƏRTAC-a bildirib ki, idarənin və Sabunçu Rayon Polis İdarəsinin əməkdaşlarının birgə keçirdikləri təxirəsalınmaz müvafiq tədbirlər nəticəsində fotoşəkilləri yayılan qadın - 1965-ci ildə Xızı rayonunda anadan olan Reyhan Səfərova müəyyənləşdirilərək polis idarəsinə gətirilib. Araşdırmalar nəticəsində məlum olub ki, qadın həmin ərazidə kirayədə yaşayır, əvvəllər məhkum olunmayıb, sakit həyat tərzi sürür, sağlamlıq imkanları məhduddur. Diqqətə çatdırırıq ki, həmin məlumatlar tərəfimizdən qəti şəkildə təkzib olunur, polis orqanları ilə heç bir dəqiqləşdirmə



aparılmadan əsassız yazılıb. İddialar dezinformasiyadır və təxribat xarakteri daşıyır.

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

Son səhifə

25 yanvar

# Uşaqların inkişafı üçün lazım olan 10 qida



***Balanslı qidalanma uşaqların böyüməsi və inkişafı üçün çox vacibdir. Mütəxəssislər bildirir ki, bəzi məhsullara uşaqlıq çağında daha çox üstünlük vermək lazımdır, çünki onların təsiri sağlamlığı müəyyənləşdirir. Türkiyə mətbuatına istinadən oxucuları məşhur dietoloq Ferin Batmanın uşaqlar üçün hazırladığı faydalı qidalar siyahısı ilə tanış edirik.***

**1. C vitamini ilə zəngin məhsullar**

Bədəni toksinlərdən təmizləmək və immuniteti gücləndirmək üçün C vitamini ehtiyacı qarşılanmalıdır. Bunun üçün bütün fəsillərdə gün ərzində 2 -3 meyvə uşaq rasionuna daxil edilməlidir. Uşaqların şirniyyat istəklərini qarşılamaq üçün meyvə çərəzləri, meyvəli dondurma və smuzilərdən də istifadə edilə bilər.

**2. Yulaf**

Yulaf, B vitamini, dəmir, sink və kalsium ilə zəngin əla səhər yeməyi seçimidir. Karbohidrat və lif tərkibli şorbalar da uşaqlara enerji verir.

**3. Yumurta**

Yumurta zülal mənbəyidir. Eyni zamanda B, E vitamini və dəmirlə zəngindir. Uşaq menyusunda ət, balıq, yumurta, paxlalı və qoz-fındıq kimi protein mənbələrinə üstünlük verilməsi vacibdir. Kiçik yaşlı uşaqlara yumurta sarısı faydalıdır.

**4. Qoz-fındıq**

Uşaqlar həm yağa, həm də zülala ehtiyac duyduqları üçün qoz-fındıq onlar üçün sağlamlıq mənbəyidir.

**5. Süd və süd məhsulları**

Süd məhsulları uşaq menyusuna əlavə edilməlidir.

**6. Brokoli**

Brokoli həm böyüklər, həm də uşaqlar üçün ən faydalı tərəvəzlərdən biridir. Kalsium, kalium, beta-karotin, B vitamini və digər qida maddələri ilə zəngin tərəvəz, inkişaf yaşındakı uşaqlar üçün mütəmadi istifadə edilməlidir.

**7. Rəfinə edilməmiş taxıl məhsulları**

Bütün taxıl məhsullarının qida dəyəri yüksəkdir. Qəhvəyi düyü və kəpəkli buğda çörəyi lif, mineral və vitamin baxımından ağ undan hazırlanmış qidalardan üstündür.

**8. Zülal**

İnkişafda olan uşaqların zülala ehtiyacı var. Paxlalı bitkilər, qoz-fındıq və ya ət, balıq, toyuq və hinduşka bu yaxşı seçimlərdən bəziləridir.

**9. Göyərti**

Göyərti əlavə edilmiş şorba, smuzi və omletlərə üstünlük verin.

**10. Balıq**

Balıq, Omeqa-3 tərkibi sayəsində uşaqları xroniki xəstəliklərdən qoruyur, beyinin inkişafına kömək edir, yüksək protein tərkibi isə böyüməni sürətləndirir.//Publika.az

## Naomi Osaka 15 yaşlı Kori Qauffa uduzub



Tennis üzrə Avstraliya Açıq Çempionatının (“Australian Open”) hazırkı qalibi, yaponiyalı Naomi Osaka “Böyük dəbilqə” seriyasının mövsümdə ilk turnirinin üçüncü dövrəsində amerikalı Kori Qauffa məğlub olub. Turnirin ümumi mükafat fondu 49,1 milyon dollar təşkil edir. TASS agentliyi xəbər verir ki, görüş 6:3, 6:4 hesabı ilə amerikalı tennisçinin xeyrinə başa çatıb. Növbəti dövrədə Qauff çinli Çjan Şuay və amerikalı Sofiya Kenin arasındakı matçın qalibi ilə qarşılaşacaq.

Osaka Qadın Tennis Assosiasiyasının (WTA) reytinqində dördüncü yerdədir, Qauff isə 67-ci mövqedə qərarlaşıb. Yaponiyalı və amerikalı öz aralarında ikinci görüşlərini keçiriblər. İndi onların qarşıdurmasında hesab bərabərdir - 1:1. 15 yaşlı Qauff son 23 il ərzində “Böyük dəbilqə” turnirinin dördüncü dövrəsinə çatan ən gənc qadın (15 yaş 114 gün) tennisçidir.

## Dneprdə qripdən 2,5 yaşlı uşaq ölüb

Ukraynanın Dnepr şəhərində 2,5 yaşlı uşaq qrip və kəskin respirator virus infeksiyasından ölüb. Bu barədə AZƏRTAC-a Ukrayna Səhiyyə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Məlumata görə, A (H1N1) virusuna yoluxan körpə ağır halda xəstəxanaya yerləşdirilib. Bu hadisə yeni epidemioloji mövsümdə Dneprpetrovsk vilayətində qripdən ilk ölüm faktıdır. Yeni epidemioloji mövsümdə Ukraynada qripdən həlak olanların ümumi sayı isə 12 nəfərə çatıb.



## Çində 6 günə xəstəxana inşa olunacaq



Çində koronavirusun indiyədək aşkar edilməmiş növünə (2019-nCoV) yoluxanların sayının davamlı armasını nəzərə alan səlahiyyətli qurumlar Uxan şəhərində 1000 çarpayılıq xüsusi mobil xəstəxananın inşasına qərar veriblər. AZƏRTAC xəbər verir ki, artıq tikintisinə başlanılan xəstəxananın 6 günə hazır olması nəzərdə tutulub. Şəhərdə koronavirusa yoluxmuş sakinlər hazırda ayrı-ayrı xəstəxanaların infeksion xəstəliklər şöbələrində yerləşdiriliblər. Uxanda koronavirusun səbəb olduğu sətəlcəm xəstəliyi ilə əlaqədar yaradılmış xüsusi qərargahdan bildiriblər ki, virusa yoluxma hallarının çoxalması xəstələrin təcrid olunmuş qaydada ayrıca xəstəxanaya yerləşdirilməsi ehtiyacını yaradıb. Yeni tibb ocağının ümumi sahəsi 25 min kvadratmetr olacaq.

Bu cür xüsusi mobil xəstəxananın inşası Çində ilk dəfə deyil həyata keçirilir. Belə ki, 2002-2003-cü illərdə Çində yayılan Şiddətli Kəskin Respirator Sindromu (SARS) ilə əlaqədar paytaxt Pekinin kənarında 7 günə mobil xəstəxana inşa olunmuşdu.

## “Real” Benzema ilə yeni müqavilə imzalayacaq



“Real” futbolçusu Kərim Benzema ilə yeni müqavilə ilə bağlı razılığa gəlib. “Marca” nəşrinin yazdığına görə, fransalı hücumçunun sözləşməsini 2022-ci ilin yayınadək uzadılacaq. Benzemanın mövcud müqaviləsi gələn ilin iyununa qədərdir. Qeyd edək ki, Kərim Benzema bu mövsüm İspaniya La Liqasında 19 oyuna 12 qola imza atıb.

*Baş redaktor:*

Bəhruz Quliyev

*Baş redaktorun müavinləri:*

Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600